# QARABAĞ AZƏRBAYCANDIR!



## Mehriban Əliyeva Səmərqənddə "Özbəkistanın rəngləri" adlı sərgi ilə tanış olub

5

## Azərbaycan - Özbəkistan: Qardaşlıq münasibətləri yeni mərhələdə!

4



SƏS
№ 206 (6647) 11 noyabr 2022-ci il. Qiyməti 60 qəpik

# İki ilin dünəni və bu günü



*İki gün öncə iki il əvvəl əldə etdiyimiz tarixi Zəfərimizin ikinci ildönümünü qeyd etdik. 2020-ci ildə yaşadığımız qanlı-qadalı, sevincli-kədərli 44 günlük müharibənin artıq iki ildir ki, Zəfərini qeyd edir, iki ildir ki, 27 sentyabr-10 noyabr tarixlərində həmin günlərə qayıdır, onları bir-bir yaşayaraq, yenidən qələbəyə gəlib çatırıq.*

9

## Azərbaycan gəncliyi vətənpərvərlik ruhunda yetişib



8

## HEYDƏR ƏLİYEVİN AFORİZMLƏRİ



7

*Bir əsrdə ikinci dəfə dövlət yaratmaq fürsəti qazanmış Azərbaycanın başının üstünü müharibə, işğal təhlükəsi alanda indi özünü "ədalətin carçısı" adlandıran dövlətlər susmuşdular.*

## Viran İran və Ermənistan



12



## Xaricdən maşın alanlar, diqqətli olun!

*"Xaricdən maşın alarkən Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin müvafiq maddələrində altı növ qiymətləndirmə üsulu var.*

16

## Şəhidlik zirvəsinə aparan yol



13

# XALQ-ALİ BAŞ KOMANDAN BİRLİYİ: "QARABAĞ - AZƏRBAYCANDIR"!

## *İLHAM ƏLİYEV: "Bizi Qələbəyə aparan güclü iradə idi, Vətən sevgisi idi, hərbçilərimizin peşəkarlığı idi"*









***Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak ediblər. Dövlətimizin başçısı hərbçilər qarşısında çıxış edib. Dövlət başçısı qeyd edib ki, alınmaz qala sayılan Şuşanı iki il bundan əvvəl erməni işğalından azad edən Azərbaycan Silahlı Qüvvələri şanlı tarix yazdı. Bu şanlı tarix bizimlə əbədi olacaq. Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər:***

"Şuşa həqiqətən alınmaz qala sayılırdı. Şuşanı yüngül silahlarla təchiz edilmiş qəhrəman hərbçilərimiz azad edəndə onlar ölümə gedirdilər. Vətən uğrunda, torpaq uğrunda ölümə gedirdilər. Hər birimiz yaxşı anlayırdıq ki, Şuşasız bizim tam qələbəmiz mümkün olmayacaq.

Müharibə dövründə çoxsaylı müsahibələrdə mən müharibənin gedişatı ilə bağlı bəzi məqamları açıqlayırdım. Təbii ki, hər şeyi deyə bilmirdim. Xüsusilə gələcək planlar haqqında bir çox şeyləri deyə bilmirdim. Verilən suala cavab olaraq cəmi bir dəfə demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Əminəm, Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir. Hər dəfə Şuşada olarkən, - mən son iki il ərzində Şuşada on dəfədən çox olmuşam, - hər dəfə Zəfər Yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür. Çünki "Zəfər Yolu" adlandırdığımız yol cəmi iki ilə yaxındır ki, çəkilib. Qəhrəman övladlarımız dağlardan, meşələrdən, dərələrdən, cığırlardan bu uzun məsafəni qət edərək, qanlı döyüşlərdə düşməni məğlub edərək Şuşaya yaxınlaşıb. Ondan sonra sıldırım qayalara dırmaşaraq, yüngül silahlarla küçə döyüşlərində, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə düşməni məğlub edib, torpağımızdan qovub, üçrəngli bayrağımızı Şuşada qaldırıb. Bu tarixi gündən cəmi iki il keçib və iki il ərzində bir çox hadisələr baş verib. İllər keçdikcə hərbçilərimizin qəhrəmanlığı hər kəs üçün daha bariz şəkildə aydın olacaq.

Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır. Müharibənin ilk günündən son gününə qədər Azərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi, 44 gün ərzində bir gün də geri addım atmamışdı. Halbuki, biz dünya hərb tarixindən bilirik ki, belə çətin müharibələrdə, xüsusilə bizim üçün əlverişsiz relyef şəraitində gedən müharibələrdə manevrlər də olur, geriyə addımlar da olur və gözlənilməz hadisələr də olur. Ancaq bizi Qələbəyə aparan güclü iradə idi, Vətən sevgisi idi, hərbçilərimizin peşəkarlığı idi."

### "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi"

10 noyabr - Azərbaycan Prezidenti İlham Əliyevin şərtləri və "Dəmir yumruğ"un hesabına imzalanan və Ermənistanın kapitulyasiyası kimi tarixə düşməsindən iki il ötür. Bəli, 10 noyabr - Xalq və hakimiyyət "Qarabağ - Azərbaycandır" dedi və bunu etdi. Sentyabrın 27-si Azərbaycan tarixində yeni səhifə açıldı. Ölkəmiz doğma torpaqlarının düşmən tapdağından azad edilməsi üçün əks-həmlə əməliyyatlarına başladı və 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. 10 noyabr 2020-ci il tarixdə isə Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinə son qoyuldu. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin şərtləri və "Dəmir yumruq"un hesabına imzalanan Bəyanat Ermənistanın kapitulyasiyası kimi tarixə düşdü. Məğlubiyyətini bəyan edən rəsmi Yerevan 3 rayonu - Kəlbəcər, Laçın və Ağdamı Azərbaycana döyüşsüz qaytarmağa məcbur edildi. İmzalanan üçtərəfli Bəyanatda nəzərdə tutulan məsələlər regionun gələcəyinə dair Prezident İlham Əliyev konsepsiyasının üstünlüyünü və həyatiliyini göstərməklə yanaşı, həmçinin bəyanatın bütün maddələri Azərbaycan tərəfinin uğurudur.

Təhlil

**Ardı Səh. 3**

# XALQ-ALİ BAŞ KOMANDAN BİRLİYİ: “QARABAĞ - AZƏRBAYCANDIR”!







Əvvəli-Səh-2

Ən əsası isə, bu bəyanat regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, bölgənin iqtisadi inkişafına xidmət edəcək, ”Şərq-Qərb” nəqliyyat dəhlizinin tərkib hissəsi kimi ”Mehri dəhlizi”nin açılması olacaq ki, bu da, ilk növbədə, Naxçıvana və sonra da qardaş Türkiyəyə dəmir yolunun açılması deməkdir. Həm də bu kommunikasiya xətləri təkcə Azərbaycan üçün deyil, eyni zamanda, region ölkələrinin hamısı üçün böyük əhəmiyyət kəsb edəcək.Üçtərəfli görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata verdiyi bəyanatda da bu məqamı xüsusi vurğulayaraq demişdir: ”Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq”.

### ÜÇTƏRƏFLİ BƏYANATIN İMZALANMASI ÜMUMXALQ BİRLİYİNİN TƏNTƏNƏSİDİR

Bəli, tarixi sənəd olan üçtərəfli Bəyanat status-kvonu dəyişdi. Azərbaycan Prezident İlham Əliyev 10 noyabr üçtərəfli bəyanatın imzalanmasından sonra xalqa müraciətində bildirdi ki, bu bəyanatda Dağlıq Qarabağın statusu məsələsi yoxdur və bu tarixi Bəyanatın imzalanması Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Azərbaycan Ordusunun zəfər yürüşü nəticəsində imzalanan Bəyanat Azərbaycanın maraqlarına tam uyğun hazırlanıb. Ali Baş Komandan İlham Əliyevin israrlı mövqeyi nəticəsində məğlub və çıxılmaz vəziyyətə düşən Ermənistan rəhbərliyi işğal edilmiş bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxmaq və bunun üçün çıxış qrafikini təqdim etməyə məcbur olmuşdur. Qarabağa heç bir status verilmir. ”Dağlıq Qarabağ Muxtar Vilayəti” adlı ərazi yoxdur. Qarabağın bütün rayonları digər rayonlarımız kimi Azərbaycanın tərkibində olan ayrılmaz ərazimizdir. Laçın dəhlizində təhlükəsizliyin təminatı Azərbaycanın səlahiyyətindədir. Dövlət Sərhəd Xidməti Azərbaycanın bütün sərhədlərində Vətənin keşiyini çəkir. Həmçinin, üçtərəfli Bəyanatın imzalanması ümumxalq birliyinin təntənəsidir. Bütün dünya Azərbaycan xalqının birliyini gördü. Ölkəmizin bütün bölgələrində hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlara sevinib. ”Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi”, - deyən Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciətini bu sözlərlə bitirib: ”Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!”

### ”QARABAĞ AZƏRBAYCANDIR!” REALLIĞI 44 GÜNDƏ MÜMKÜNSÜZÜ MÜMKÜN ETDİ

Bir sözlə, ”Qarabağ Azərbaycandır!” reallığı 44 gündə mümkünsüzü mümkün etdi. Və 10 noyabr - Azərbaycan Prezidenti İlham Əliyevin şərtləri və ”Dəmir yumruğ”un hesabına imzalanan Bəyanət Ermənistanın kapitulyasiyası kimi tarixə düşdü, Xalq və hakimiyyət ”Qarabağ - Azərbaycandır!” dedi və bunu etdi. Artıq bu gün ”Qarabağ Azərbaycandır və nida” ifadəsi bizim qələbəmizin rəmzinə çevrildi. Ali Baş Komandanımız, Prezident İlham Əliyev dediyi kimi: ”Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!”

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan - Özbəkistan: Qardaşlıq münasibətləri yeni mərhələdə!

*Səmərqənddə Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub*





***Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak etmək üçün noyabrın 10-da Özbəkistan Respublikasına səfərə gəlib. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşılayıblar.***

Daha sonra Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılayıblar. Görüşdə çıxış edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bildirib ki, bizim münasibətlər strateji əhəmiyyət daşıyır:

-Hörmətli İlham Heydər oğlu, bir daha Özbəkistana xoş gəlmisiniz. Sizi Səmərqənddə görmək mənə çox xoşdur. Çox şadam ki, Siz xanımınız Mehriban Arif qızı ilə birlikdə gəlmisiniz. Ona görə ki, mən demişəm, bu, rəmzi mənə daşıyır. Dediyim kimi, sabahkı Sammit rəmzi mənə daşıyır, ona görə ki, bu tədbirin əsasını Naxçıvanda qoymuşuq, İlham Heydər oğlu, Sizin Vətəninizdə, atanızın Vətənində. Biz görürük ki, bu istiqamətdə çoxsaylı tarixi hadisələr baş verib. Özbəkistanda bu tarixi hadisə ilk dəfədir. Nə üçün Səmərqənddə təşkil olunması da böyük əhəmiyyət kəsb edir, ona görə ki, sabah Səmərqənddə ilk dəfə olaraq Zirvə Görüşü yeni adla keçiriləcək. Bütün bunlar hamısı qarşılıqlı surətdə əlaqəlidir. Beləliklə, xoş gəlmisiniz!

Danışıqlara başlamazdan əvvəl Sizi böyük Qələbə - 8 Noyabr günü münasibətilə təbrik etmək istəyirəm. Sizin yaxın dostlarınız kimi biz də bu Zəfəri bayram etmişik. Bu münasibətlə Sizi bir daha təbrik edirəm. 12 Noyabr - Konstitusiya Gününüzü təbrik edirəm. Sabah sizdə Milli Olimpiya Komitəsinin 30 illiyidir, bu münasibətlə də təbrik edirəm, - Siz bu təşkilata rəhbərlik edirsiniz. Bunlar elə hadisələrdir ki, yaxşı dostlar onları heç vaxt unutmamalıdırlar. Mən Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əlbəttə, dediyimiz kimi, bizim münasibətlər strateji əhəmiyyət daşıyır. Bir misal göstərim - bu il Sizinlə üçüncü dəfədir görüşürük. Bu, münasibətlərimizin strateji əhəmiyyətinə dəlalət edir. Siz üçüncü dəfədir ki, Özbəkistana səfər edirsiniz, buna görə Sizə çox təşəkkür edirəm. Əlaqələrimiz sistemli olub və ən başlıcası, konkret nəticələr verir. Bizim komandalar artıq bir-birini tanıyır. Biz Sizin gəlişinizə hazırlaşmışıq, çoxlu ciddi layihələr var, genişproqramlı çoxlu səfərlər olub. Artıq görüşürlər, söhbət edirlər. Hökumətlərarası Komissiyanın iclası uğurla, çox yaxşı keçib və həmkarlar Hökumətlərarası Komissiyanın sədri ilə söhbət ediblər, yaxşı plan nəzərdə tutublar.

Prezident İlham Əliyev:

-Sağ olun, hörmətli Şavkat Miromonoviç. İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Yenidən Səmərqənddə olmağıma çox şadam. Azərbaycanın Vətən müharibəsində Qələbəsi münasibətilə təbrikinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz qardaş özbək xalqının, şəxsən Sizin bizə, ölkəmizə və Azərbaycanın ədaləti bərpa etməsinə münasibətinizi çox yüksək qiymətləndiririk. Biz bu dəstəyi müharibə dövründə də, sonra da hiss edirdik. Əlbəttə, işğaldan azad edilmiş Füzuli şəhərində məktəb tikmək təşəbbüsünüzə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, ərazilərin bərpası işinə ilk xarici töhfə olacaq və biz bunu çox yüksək qiymətləndiririk. İndicə Sizinlə informasiya mübadiləsi etdiyimiz kimi, məktəbin tikintisi artıq başlanıb. Bu məktəb bizim xalqlarımızın qardaşlığının rəmzi olacaq.

Həqiqətən son vaxtlar biz çox yaxınlaşmışıq. Fikrimcə, bu da bizim əcdadlarımızın iradəsidir və xalqlarımız arasında tarixi qardaşlıq əlaqələri məcrasında baş verir. Yeddi ay ərzində üçüncü dəfədir ki, Özbəkistana səfər edirəm. Hər dəfə şəxsən Sizə və qardaş özbək xalqına böyük məhəbbətlə, böyük hörmətlə gəlirəm və burada olandan sonra Sizin rəhbərliyinizlə Özbəkistanın qazandığı böyük nailiyyətlər haqqında danışıram. Daşkəndi, Xivəni, Səmərqəndi ziyarət etmək kifayətdir. Mən artıq Özbəkistanla kifayət qədər yaxşı tanışam və deməliyəm, birmənalı şəkildə qeyd etmək olar ki, Səmərqənd mühüm beynəlxalq siyasi mərkəzə çevrilib. Ona görə ki, burada dünya liderlərinin iştirakı ilə dünya səviyyəli müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu münasibətlə də Sizi təbrik edirəm. Əlbəttə, Sizin qeyd etdiyiniz mövzular gündəlikdədir. Biz Sizinlə razılaşdıq ki, qərarlarımızın yerinə yetirilməsinə nəzarət edəcəyik. Sizin qeyd etdiyiniz kimi, bütün istiqamətlər üzrə yaxşı proseslər gedir.

Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələləri barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünün Səmərqənd şəhərində keçirilməsinin böyük tarixi və rəmzi mənə daşıdığı vurğulandı. Xüsusən təşkilatın adının dəyişdirilməsindən sonra ilk Zirvə Görüşünün bu tarixi şəhərdə təşkil olunmasının önəmi qeyd edildi.

# "Azərbaycan Avropa Olimpiya ailəsində həmrəyliyə böyük töhfə verib"

*Prezident İlham Əliyev Avropa Olimpiya Komitələrinin prezidentini qəbul edib*



***Prezident İlham Əliyev dünən Avropa Olimpiya Komitələrinin prezidenti və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralosu qəbul edib. Dövlətimizin başçısı, ilk növbədə, Spiros Kapralosu Avropa Olimpiya Komitələrinin prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb, eyni zamanda Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubiley tədbirlərində iştirakına görə minnətdarlığını bildirib. Birinci Avropa Oyunlarını məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu mötəbər tədbirin önəmini vurğulayıb, oyunların təşkilində Spiros Kapralosun rolunu yüksək qiymətləndirib.***

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq, ilk növbədə, Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə təbriklərini çatdırıb. Birinci Avropa Oyunlarının əhəmiyyətinə toxunan Spiros Kapralos bu beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkil olunduğunu və bu işdə dövlətimizin başçısının rolunu xüsusi qeyd edib. Bildirib ki, ölkəmizin bu tədbirə layiqincə ev sahibliyi etməsi Avropa Olimpiya ailəsində həmrəyliyə böyük töhfə verib. Spiros Kapralos ötən dövr ərzində Azərbaycan idmançılarının beynəlxalq turnirlərdə qazandıqları böyük uğurları məmnunluqla vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanla Avropa Olimpiya Komitələri arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib. Söhbət zamanı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb. Spiros Kapralos dövlətimizin başçısına Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə xatirə hədiyyəsi təqdim etdi. Sonda xatirə şəkli çəkdirilib.

# ”Dostluq və qardaşlıq əlaqələrimiz uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev Səmərqənddə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb*



***Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.***

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə əsaslanan dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bölgədə vəziyyət və təhlükəsizlik məsələləri müzakirə edildi, Soçi görüşünün nəticələri barədə fikir mübadiləsi aparıldı.

## Mehriban Əliyeva Səmərqənddə “Özbəkistanın rəngləri” adlı sərgi ilə tanış olub





Noyabrın 10-da Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və digər ölkələrin birinci xanımları Səmərqənddə ”Özbəkistanın rəngləri” adlı sərgi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai birlikdə sərgiyə baxıblar.



Qeyd edək ki, sərgidə Nukusda yerləşən İ.Savitski adına Qaraqalpaqıstan Respublikası Dövlət İncəsənət Muzeyinin kolleksiyasından məşhur əsərlər nümayiş olunur. Burada sərgilənən əsərlər Özbəkistanın XX əsr təsviri sənətinin bütün istiqamətlərini əhatə edir. Özbəkistanın qeyri-adi təbiəti, qədim abidələri rəssamlar üçün hər zaman ilham mənbəyi olub. Qaraqalpaqıstanın bir çox rəssamları mavi Aral dənizi və Amudəryadan ilhamlanaraq mükəmməl əsərlər ərsəyə gətiriblər.

Özbəkistanda təsviri sənət XX əsrdə sürətlə inkişaf edib. Həmin dövrün rəssamlarının həyatlarının müxtəlif olmasına baxmayaraq, onları birləşdirən Özbəkistan idi. Təkcə Özbəkistanda doğulan rəssamlar deyil, buraya müxtəlif yerlərdən gələnlər də günəşli diyarın ecazkarlığına valeh olaraq bu qədim torpaqda həmişəlik yaşayıb-yaradıblar. Bu gün onların da əsərləri sərgidə nümayiş olunur.

## Livanlı politoloq: ”İranın dərin tarixi köklərlə bağlı olduğu azərbaycanlıları deyil, erməniləri dəstəkləməsi heç bir məntiqə sığmır”


الشرق الأوسط
الرئيسية أولى الأخبار الرأي الاقتصاد الرياضة الملاحق ثقافة ملفات الشرق الأخيرة
الرأي
دور لإيران في الصراع بين أرمينيا وأذربيجان!
الخميس - 16 شهر ربيع الثاني 1444 هـ - 10 نوفمبر 2022 مـ رقم العدد [16053]
هدى الحسيني
كاتبة صحافية ومحللة سياسية لبنانية.
ما أروع المرأة عندما تغضب. على مدى الأسابيع الثمانية الماضية، قتل النظام الإيراني أكثر من 300 متظاهرة ومتظاهر، وسجن ما يقرب من 15000 وهدد بإعدام مئات آخرين، ومع ذلك لن يتم إسكات النساء الإيرانيات. شعار طالبات الجامعات: «أنا امرأة حرة». شابات صغيرات يدعمهن شبان من أعمارهن دفعن المتشددين الإيرانيين إلى حث القضاء في البلاد على «إظهار عدم التساهل» مع المحتجين، وظل الآلاف في جميع أنحاء البلاد يواصلون احتجاجاتهم، ويرددون بشجاعة: «نحن نُظهر شعرنا ونرقص ونغنّي، وكل هذه الأنشطة ممنوعة في إيران علينا فقط لأننا فتيات. نحن نخرق كل القوانين التمييزية كل يوم. نحن نجازف بحياتنا ولكننا نعلم أن الحرية ليست مجانية. علينا أن نقاتل من أجلها».
من الواضح أن الأحداث المهمة التي تشهدها المنطقة مرتبطة بشكل أساسي بالنظام الإيراني، والتشكيك في هذا ما هو إلا جهل أو تضليل بدور النظام الحقيقي الذي هو تدميري بامتياز، وعن قصد، ولم يعد خافياً على أي إنسان موضوعي مدى الفوضى والانهيار السياسي والاقتصادي والاجتماعي لكل دولة سيطر عليها الملالي عبر أذرعهم المسمومة، محققين ما لم تستطع دولة

İran rejiminin siyasətində çoxlu təzadlı məqamlar var və bu dövlətin özünün sıx dini, mədəni, tarixi, nəhayət, qohumluq əlaqələri olduğu azərbaycanlıları deyil, erməniləri dəstəkləməsi heç bir məntiqə sığmır. Tehran ilk gündən Azərbaycanla Ermənistan arasında münaqişəyə qarışıb və bu məsələdə subyektiv, eyni zamanda, qaranlıq olan maraqlarından çıxış edib. Analitiklər İranın mövqeyini izah etməkdə çətinlik çəkir. Xüsusən, İranın Azərbaycanla sərhəddə keçirdiyi hərbi təlimlər Bakını Tehrandan daha da uzaqlaşdırır. Bu, Tehran tərəfindən çox uğursuz siyasi kursdur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər livanlı xanım politoloq Huda Əl Hüseyninin ”Al Şarq Al Asvat” nəşrində dərc olunmuş ”İranın Azərbaycanla Ermənistan arasında münaqişənin həllində rolu” sərlövhəli analitik məqaləsində yer alıb. Müəllif vurğulayıb ki, özünün məntiqsiz bəyanatlarında rəsmi Bakını İsrail və Qərblə əməkdaşlıqda ittiham edən İran, eyni zamanda, 765 kilometr sərhədi olan qonşu Azərbaycanla münasibətləri gərginləşdirir. Bu, Ermənistanla bağlı rəsmi Tehranın son addımlarında özünü daha açıq göstərir.

Huda Əl Hüseyni onu da qeyd edib ki, İranın ərəb ölkələri ilə də münasibətləri gərginləşdirməsi yeni xarici siyasi kurs deyil. Belə ki, şah Məhəmməd Rza Pəhləvinin hakimiyyəti dövründə də Tehran antiərəb siyasəti aparıb və indiki rejim onu davam etdirir.

## Azərbaycan ilə Moldovanın hakim partiyalarının gəncləri arasında əməkdaşlıq məsələləri müzakirə edilib



Azərbaycan ilə Moldovanın hakim partiyalarının gəncləri arasında əməkdaşlıq inkişaf etdirilir. Moldova Respublikasının Parlamentində Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və YAP Gənclər Birliyinin üzvü, Bakı Gənclər Mərkəzinin direktoru Nərgiz Babayeva Moldovanın hakim Hərəkat və Həmrəylik Partiyasının gənc deputatları ilə görüş keçiriblər.

Görüşdə YAP-ın nümayəndələri Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasəti, dövlət tərəfindən gənclərə göstərilən yüksək diqqət və qayğı, eləcə də YAP Gənclər Birliyinin fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr haqqında qarşı tərəfə geniş məlumat veriblər.

Eyni zamanda tərəflər arasında gənclər sektoru üzrə birgə layihələrin həyata keçirilməsi, əməkdaşlıq imkanları və perspektivləri, o cümlədən gənclərin texnologiya və innovasiyalar üzrə bacarıqlarının artırılması istiqamətində təcrübə mübadiləsi müzakirə olunub.

Görüş iştirakçıları qarşılıqlı maraq kəsb edən məsələlərlə bağlı fikir mübadiləsi aparıblar. Öz növbəsində Bəxtiyar İslamov Moldova səfərindən xoş təəssüratlarını bölüşərək moldovalı gəncləri Azərbaycana dəvət edib.

# Yeni Azərbaycan Partiyası- 30

# “Nə? Harada? Nə zaman?”

*YAP-ın 30 illik yubileyinə həsr olunmuş intellektual oyununun final mərhələsi keçirilib*

***Noyabrın 6-da "Gülüstan" sarayında Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyununun final mərhələsi keçirilib.***












YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov hesabat məruzəsi təqdim edərək bildirib ki, ”Azərbaycan İntellektual Klublar Assosiasiyası” İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində YAP yerli təşkilatlarını və Gənclər Birliyini təmsil edən 77 komandanın iştirakı ilə keçirilən intellektual oyunun seçmə mərhələsi üzrə yarışlar Bakı, Quba, Şəki, Şəmkir, Ağcabədi, Masallı və Göyçayda təşkil olunub.

Komandaları ümumilikdə təmsil edən 616 nəfər gənc ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Yeni Azərbaycan Partiyasının 30 illik tarixi, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə və ölkəmizin müasir tarixində baş verən mühüm hadisələrlə əlaqədar sualları cavablandırıblar.

Hər qrup üzrə 3 qalib, ümumilikdə 21 komanda final mərhələsində I-III yerlər üzrə mübarizə aparmaq haqqı qazanıblar. Tədbirdə I, II, III yerləri tutmuş Səbail, Şirvan, Nərimanov komandalarının oyunçuları müvafiq diplomlar, medallar və xatirə hədiyyələri ilə, qalib komanda isə əlavə olaraq kubokla təltif olunub.

III yerin qalibi - Nərimanov komandasını YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, II yerin qalibi - Şirvan komandasını YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə, I yerin qalibi - Səbail komandasını isə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib.

İntellektual oyunun bağlanış mərasimində çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qarşıdan gələn Zəfər bayramı, Dövlət Bayrağı Günü və Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik edib. Tahir Budaqov vurğulayıb ki, Zəfər günü ərəfəsində belə bir tədbirin keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Gənclərimiz hərb meydanında olduğu kimi, bilik yarışmasında da öz şücaət və bacarıqlarını nümayiş etdirirlər. Yeni Azərbaycan Partiyasının sıralarında intellektual gənclər ordusunun olması çox sevindiricidir. Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, gənclər bizim gələcəyimizdir.

YAP Sədrinin müavini bilik yarışmasında iştirak edən bütün gəncləri təbrik edib. O qeyd edib ki, bu yarışa qatılan hər bir gənc özünü qalib hesab edə bilər. Vurğulayıb ki, belə intellektual yarışlarda təmsil olunmaq Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə və Yeni Azərbaycan Partiyasının prinsiplərinə olan inamın ifadəsidir.

Tahir Budaqov əlavə edib ki, qalib komandalara təqdim olunan medallar dünyada yeganə nüsxələrdir və bu yarış üçün xüsusi hazırlanıb. Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinə həsr olunmuş ”Nə? Harada? Nə zaman?” intellektual oyunu Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.





# Yeni Azərbaycan Partiyası- 30

# HEYDƏR ƏLİYEVİN AFORİZMLƏRİ



*Prof. Şahlar Əsgərov, əməkdar elm xadimi, YAP Veteranlar Şurasının üzvü*

YAP yarandığı ilk dövrlərdə YAP sədri Heydər Əliyev çıxışlarının birində: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır"- dedi və düz dedi. YAP-ın dünənində müstəqil dövlət quruculuğu, BTC neft kəməri, günbəgün gözəlləşən Bakı, Ağ şəhər, şəhərbəşəhər yenilənmiş Azərbaycan var. YAP-ın bu günündə 200 illik problemi 44 günə həlli, Zəfər və Dəmir yumruq, Qarabağ Azərbaycandır və dövlətimizin artan beynəlxalq nüfuzu durur. Əminliklə deyə bilərik ki, YAP gələcəyi elm və təhsillə bağlıdır.Ulu öndər 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələndən sonra həm dövlət quruculuğu, həm də həyatımızın müxtəlif sahələri ilə bağlı bir sıra dərin məzmunlu fəlsəfi fikirlər söyləmişdir. YAP-ın 30 illik yubileyi ərəfəsində bu fikirlərin bir qismi gənclərə təqdim edilir. Hesab edirəm ki, gəncləşən məmur korpusu bu fikirləri bilsə, uğurumuz daha çox olar. Çünki bu fikirləri ulu öndər söyləyəndə onlar ya orta məktəblərdə oxuyurdular, ya da xaricdə təhsil alırdılar. Bugünkü dövlətin bünövrəsində Heydər Əliyevin fəlsəfi fikirləri durduğundan, gənclərin bu qiymətli fikirləri bilməsi dövləti əhəmiyyət kəsb edir.

Ulu öndərin aforizmlərinin bir çoxu bəşəriyyətin mənəvi xəzisinə töhfədir və qlobal dəyərə malikdir. Yeri gəlmişkən qeyd edim ki, Azərbaycanın prezidentləri olmuş rəhmətlik A.Mütəllibovun və Ə.Elçibəyin kəlamlarını da paylaşmağa hazıram, əgər beləleri varsa. Siyasi düşüncəsindən asılı olmayaraq, mən mənəvi dəyərlərin aşiqiyəm. Əvvəlcə ulu öndərin zaman və məkana sığmayan bəşəri kəlamlarının bir qismi ilə tanış olaq.

## BƏŞƏRİ FİKİRLƏR

Xalq azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayar və qoruya bilərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar. Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir. Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır. Yol-iqtisadiyyat, mədəniyyat, bir sözlə həyatdır. Ağıl olan yerdə zora ehtiyac yoxdur. Hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli, yüksək təfəkkürə, yüksək biliyə malik olan insanlarıdır. Rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir. Ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir. Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu, xalqın ən böyük faciəsidir. "Qurani-şərif"in bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yolları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyyələrdir. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir. Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır.

## TƏHSİL SİYASƏTİNİN HEYDƏR ƏLİYEV MÜDDƏALARI

Qeyd edildiyi kimi, əminliklə demək olar ki, YAP-ın sabahı təhsillə bağlıdır. Bu səbəbdən ulu öndər təhsil ilə bağlı çoxlu dəyərli fikirlər söyləmişdi. Böyük dövlət və düşüncə adamı Heydər Əliyevin təhsilin məzmunu, təhsil subyekləri, təhsil qurumları və tərbiyə haqda söylədiyi aforizmlərin bəziləri ilə tanış olaq. Güman edirəm ki, gənc təhsil idarəedicilləri bu kəlamların işığında daha düzgün qərarlar qəbul edəcəklər.

## Təhsil

XX əsrdə yaranmış təhsil sistemi bizim böyük sərvətimizdir və XXI əsrə biz müstəqil dövlət olaraq, həmin bu böyük potensialla başlamışıq. Hər bir gənc əsaslı təhsil almalıdır. Hər bir gənc müasir həyatın tələblərini mənimsəməlidir. İqtisadiyyat və siyasət sahələrində, sosial sahədə bütün yenilikləri, dünyada gedən prosesləri bilməlidir. Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Gənclərimizi nə qədər həqiqi yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və Azərbaycanın iqtisadiyyatının inkişafı insanlarının rifah halı o qədər də yaxşı olacaqdır. Biz insanların sərbəst fikirləşməsinə, sərbəst təşəbbüs göstərməsinə şərait yaradırıq. Arzumuz da budur ki, bu şəraitdən bizim təcrübəli adamlar, məktəblərimiz, təhsil ocaqları səmərəli istifadə etsinlər və təhsil sisteminin təkmilləşdirilməsi üçün lazımı təkliflər hazırlasınlar. Təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Amma keçid dövrünü yaşayan ölkələr, bir ictimai-siyasi sistemdən başqasına keçən ölkələr bu işə daha da diqqətli olmalı, daha da ciddi və həssas yanaşmalıdırlar. İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir. Dəb naminə yox, yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün aparılmalıdır. Müasir texnikanı, texnologiyanı, müasir bazar iqtisadiyyatının bütün yollarını mənimsəmək, respublikada tətbiq etmək üçün gələcək nəsli hazırlamaq və keçmiş dövrə nisbətən bir çox yeni ixtisaslar üzrə kadrlar hazırlamaq lazımdır. İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Həm orta məktəblərdə, həm ali məktəblərdə təhsilin keyfiyyəti yüksəldilməlidir. Təhsil ocaqlarında gənclərin təhsil almasına qayğı artmalıdır. Gənclərin daha da yaxşı təhsil alması üçün tələbkarlıq artırılmalıdır. Dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, ali məktəblərə daxil olan gənclər təhsil, bilik almalıdırlar, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün təhsil almalıdırlar. Azərbaycanda təhsil sistemi dövlət qayğısı altındadır. Yəni Azərbaycanın məktəbləri, təhsil müəssisələri, universitetləri, az hissəsini nəzərə almasaq, demək olar ki, hamısı dövlətə məxsusdur. Dövlət təhsilin maliyyələşdirilməsini, yüksək təhsil almaq üçün müasir maddi-texniki bazanın yaradılmasını, məktəblərin şəraitinin yaxşılaşdırılmasını özünün əsas vəzifələrindən biri hesab edir. Bundan sonra da biz Azərbaycanda təhsilin inkişafını özümüzün siyasətimizin öncül sahəsi hesab edəcəyik. XX əsrin əvvəlindən Azərbaycanda elmin inkişafı yeni vüsət alıbdır. Azərbaycanda elmi müəssisələr yaranıb, 1919-cu ildə ilk universitet yaranıbdır. Bu universitet həm yüksək təhsil ocağı, həm də Azərbaycan elmini birləşdirən, onu inkişaf etdirən böyük bir elm ocağı olubdur. Universitetlərin vəzifəsi qəbul olunan gənclərin hamısının yaxşı təhsil almasını təmin etməkdir. Universitetlərin, ali məktəblərin üzərinə çox böyük vəzifələr düşür və çox da böyük məsuliyyət düşür Təhsil sahəsində də nöqsanlar var və çoxdur. Mən nailiyyətlər haqqında danışanda heç kəs elə düşünməsin ki, guya hesab edirəm ki, bizim bütün təhsil sistemi, o cümlədən orta təhsil sistemi qüsursuzdur, nöqsansızdır. Özəl təhsil müəssisələrinin yaranması Azərbaycanda yeni bir hadisədir və biz bunları dəstəkləyirik. Ancaq bir şeyi qeyd etmək istəyirəm ki, ümumiyyətlə, təhsil biznesə çevrilməməlidir. Özəl təhsil müəssisələrinin də keyfiyyətinin yüksək olması ən vacib şərtdir. Əgər bu olmasa, biz belə özəl təhsil müəssisələrinin yaranmasına imkan verməyəcəyik.

## Tərbiyə

Çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsin. Müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Hər bir uşaq məktəb həyatı keçməlidir. Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda, bu, yüksək tərbiyə ocağıdır. Bu, eyni zamanda, uşağı, gənci müstəqil həyata hazırlayan bir səviyyədir. Çox istəmək, sevmək nəticəsində uşaq, gənc uşaqlıq, gənclik çərçivəsindən çıxırsa, o, yaxşı təhsil ala bilməz. Ona görə də gərək valideynlər də uşaqlarına tələbkar olsunlar. Müəllimlər də tələbkar olsunlar. Məhz belə halda biz yaxşı gələcək nəsil yetişdirəcəyik. İnsan üçün birincisi, onun anadangəlmə istedadıdır; ikincisi, aldığı mükəmməl təhsil və cəmiyyətdə qazandığı təcrübədir; üçüncüsü, təcrübəli insanların, həyatı görmüş insanların təcrübəsindən istifadə etməkdir. Universitetlərdə insan gənclik həyatını yaşayır. Çünki bu dövrdə gəncin formalaşması, lazımi bilik alması, lazımi mənəvi dəyərləri dərk etməsi, müasir dünyanı dərk etməsi onun gələcəyinin əsasıdır, təməlidir. Həm orta məktəblərdə, həm ali məktəblərdə təhsilin keyfiyyəti yüksəldilməlidir. Təhsil ocaqlarında gənclərin təhsil almasına qayğı və tələbkarlıq artmalıdır.

## Təhsilin məzmunu

Təhsil prosesində təhsilin məzmunu öncül yer tutur. Ancaq Azərbaycan dili və tarixinin təhsilin məzmununda xüsusi yeri var. Təhsilin məzmunu ilə bağlı H.Əliyevin bəzi fikirlərini bilmək vacibdir. Tədris hər yerdə Azərbaycan dilində getməlidir. Ancaq o yerlərdə ki, rus əhalisi üçün, yaxud bəzi rusdilli insanlar üçün tədris rus dilində gedir, orada mütləq Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı tədris edilməlidir. Müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır. Müstəqil Azərbaycanda bilik alan hər bir gənc gələcəkdə Azərbaycanın mənafeyi üçün çalışmağı qarşısına məqsəd kimi qoymalıdır. Gərək o öz ölkəsini yaxşı tanısın, öz tarixini yaxşı bilsin və seçdiyi ixtisasda, sadəcə, mütəxəssis yox, ən yüksək səviyyəli mütəxəssis olmağa çalışsın. Vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsidir. Bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır.

## Müəllim

Cəmiyyətin təhsillənməsi prosesində ən aktiv rolu müəllim oynayır. Müəllim və alim təhsil prosesinin aparıcı subyektləridirlər. Heydər Əliyev cəmiyyətin həyatında müəllim əməyini, elm adamlarının oynadığı rolu yüksək qiymətləndirirdi. İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim - hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, müəllimlərin mənə verdiyi biliklərlə bağlıdır. Hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Onun yüksək təfəkkürə, yüksək biliyə, yüksək ixtisasa malik olan insanlarıdır. Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm. Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir. Çətinliklərə qarşı yeni addımlar atmalıyıq. Bu addımlarla mədəniyyətimizi, ədəbiyyatımızı, incəsənətimizi nə qədər yüksəltsək, ziyalının hörmətini nə qədər qaldırsaq, o qədər də bu bəlalardan, çətinliklərdən tez xilas ola bilərik. Hər bir savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında müəllimin oynadığı rolu qiymətləndirməlidir. Bəzi məktəblərdə çox namuslu, sədaqətli, tələbəyə yaxşı bilik verən müəllim də var. Amma onunla yanaşı, vaxtını keçirənlər, tələbənin biliyi haqqında o qədər də çalışmayanlar da var. Bizim hər birimiz, elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə gərə məktəbə, müəllimə borcluyuq. Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər - keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir.Ulu öndərin söylədiyi kəlamlarla, fəlsəfi fikirlərin bir qismi ilə tanış olduq. Praktiki həyatda görünən odur ki, Heydər Əliyevlə bağlı maddi dəyərlərdən (onun şəklindən, imzasından) aşırı istifadə edilir, ancaq onun dövlətlə, müstəqilliklə, təhsilin özü ilə bağlı yaratdığı mənəvi dəyərlərdən, fəlsəfi fikirlərindən demək olar ki, istifadə edilmir. Aforizmlərindən istifadə edilmir, bəzən isə lap tərsinə istifadə edilir. Hesab edirəm ki, çağdaş cəmiyyətimizin vitrini Heydər Əliyevin fəlsəfi fikirləri ilə bəzənməlidir.Yeni Azərbaycan Partiyası öz yubileyinə alnıaçıq, üzüağ gəlib. Müzəffər Ali Baş Komandan, partiyamızın sədri cənab İlham Əliyev 200 illik problemi 44 günə həll etdi. Artıq Qarabağ Azərbaycandır!Gələcəyimiz ümüdlüdür. Çünki YAP yolu Heydər Əliyev yoludur. Ulu öndər bu yolu belə görürdü: Biz düz yolla - haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanin çox gözəl gələcəyinə aparıb çıxaracaqdır.

# Yeni Azərbaycan Partiyası- 30

## Azərbaycan gəncliyi vətənpərvərlik ruhunda yetişib

### *YAP-ın 30 illik yubileyinə həsr olunmuş sərbəst və Yunan-Roma güləşi üzrə turnirin final mərhələsi keçirilib*











***Noyabrın 9-da Yeni Azərbaycan Partiyasının (YAP) 30 illik yubileyinə həsr olunmuş sərbəst və Yunan-Roma güləşi üzrə turnirin final mərhələsi keçirilib.***



YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdirinin müavini Zəkiyyə Musayeva turnir barədə hesabat təqdim edərək bildirib ki, oktyabrın 30-da start götürən turnirdə sərbəst güləş üzrə 65, 70, 74, Yunan-Roma güləşi üzrə isə 67, 72 və 77 kq çəki dərəcələrində ümumilikdə 312 gənc mübarizə aparıb. Yarışların qrup mərhələsi Bakı, Abşeron, Ağcabədi, Göygöl, Qəbələ, Astara və Kürdəmirdə keçirilib, final yarışları isə Bakı şəhərində təşkil olunub.

Tədbirdə sərbəst güləş üzrə I, II, III yerlərin qalibləri - 65 kq çəki dərəcəsində Rəşid Babazadə (Abşeron), Toğrul Kamallı (Qax), Elşən Babayev (Kəlbəcər), 70 kq çəki dərəcəsində Omar Gülməmmədov (Nərimanov), Nicat Əliyev (Qazax), Mircavad Nəbiyev (Xətai), 74 kq çəki dərəcəsində Mürşid Hüseynov (Füzuli), Rəvan Əliyarov (Qəbələ), Əli Əliyev (Astara), Yunan-Roma güləşi üzrə isə 67 kq çəki dərəcəsində Rəsul Xəlilov (Balakən), Mirsirac Həsənli (Hacıqabul), Şamil Sultanəliyev (Səbail), 72 kq çəki dərəcəsində Ağaseyid Əlizadə (Abşeron), Ceyhun İsmayılov (Binəqədi), Nihad Qocayev (Qax) və 77 kq çəki dərəcəsində Aqil Musayev (Binəqədi), Tural Bayramov (Sumqayıt), Həsən Əliyev (Mingəçevir) müvafiq diplomlar, medallar və xatirə hədiyyələri ilə təltif olunublar.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev tərəfindən oyunları idarə edən hakimlərə xatirə hədiyyələri təqdim olunub.

Sərbəst güləş üzrə 65 kq çəki dərəcəsində qalibləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, 70 kq çəki dərəcəsində qalibləri YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə, 74 kq çəki dərəcəsində isə qalibləri YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib.

Yunan-Roma güləşi üzrə 67 kq çəki dərəcəsində qalibləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, 72 kq çəki dərəcəsində qalibləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, 77 kq çəki dərəcəsində isə qalibləri YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib.

Turnirin bağlanış mərasimində çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, turnirin final mərhələsi Azərbaycan xalqının həyatında əlamətdar tarixə - Dövlət Bayrağı Gününə təsadüf edir. Eyni zamanda, xalqımızın Zəfər bayramını qeyd etdiyini xatırladan Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması son 200 illik tariximizin zirvə hadisəsidir. YAP Sədrinin müavini əlavə edib ki, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi təkcə ölkəmizin ərazi bütövlüyünün deyil, eyni zamanda, xalqımızın milli qürurunun bərpasıdır.



Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunda yetişdiyini diqqətə çatdıran Tahir Budaqov turnirdə iştirak edən gəncləri təbrik edərək onlara həyat və fəaliyyətlərində uğurlar diləyib. YAP Sədrinin müavini, eyni zamanda, Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinə həsr olunmuş sərbəst və Yunan-Roma güləşi üzrə turnir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

# İki ilin dünəni və bu günü



***İki gün öncə iki il əvvəl əldə etdiyimiz tarixi Zəfərimizin ikinci ildönümünü qeyd etdik. 2020-ci ildə yaşadığımız qanlı-qadalı, sevincli-kədərli 44 günlük müharibənin artıq iki ildir ki, Zəfərini qeyd edir, iki ildir ki, 27 sentyabr-10 noyabr tarixlərində həmin günlərə qayıdır, onları bir-bir yaşayaraq, yenidən qələbəyə gəlib çatırıq. Və hər iki ildə də Zəfərimizdən əvvəlki 30 ilə dönür, olanları-keçənləri göz önünə gətirir və bu bir qərinəyə qədər zaman kəsiyində başımıza gətirilən bəlaları xatırlayır, torpaqlarımızın işğal altında inlədiyini, soydaşlarımızın ev-eşyindən didərgin salındığını, ermənilərin bütün bu insanlığa sığmayan hərəkətlərinə dünyanın susduğunu ürək ağrısı ilə anır, torpaqlarımızın bu gün azad nəfəs alması ilə öyünür, qürur duyur, fəxr edirik.***

TƏHLİL

### 30 il...

Düz 30 il torpaqlarımız erməni qəsbkarlarının tapdağı altında inlədi. Düz 30 il Qarabağsız qaldıq. 1980-ci illərin sonu, 90-cı illərin əvvəlində satıldı torpaqlarımız. Bunun üçün savaşdıq. Birinci Vətən müharibəsində minlərlə şəhid verdik, qazi qazandıq, lakin torpaqlarımızı geri qaytara bilmədik. Çünki onlar planlı şəkildə satılmışdı.

Düz 30 il göz yaşı axıtdıq. Hər Qarabağ adı gələndə ürəyimiz şan-şan oldu. 30 il o torpaqlardan məcburi şəkildə qovulanlar həsrət dolu bir həyat yaşadılar. Saray kimi evlərini qoyub didərgin həyat yaşayanlar sığınacaqlarda, çadırlarda olmazın əziyyəti ilə üzləşdilər. Əzizlərinin qəbrini o əzəli yurdlarda qoyub gələnlər 30 ildə bayramların nə olduğunu bilmədilər. Çünki bizdə bayram öncəsi qəbirlər ziyarət olunar, doğmalar yad edilər. Bu səbəbdən də bayramlar qaçqınlarımız üçün göz yaşına, nisgilə çevrildi. Əzizlərini yad edə bilmədikləri üçün bayrama bayram demədilər. O gözəl torpaqlarımızdam qovulan yaşlı insanlarımızın ürəyi doğma yurd-yuvaları üçün dərd bağladı. Yaşlı insanların əksəriyyəti torpaq nisgili ilə dünyalarını dəyişdilər. "Torpaq-torpaq" söyləyə-söyləyə dünyaya əlvida dedilər.

30 ilin hər anında torpaqlarımızın işğaldan azad olunması üçün işlər görüldü. Ümummilli liderimiz Heydər Əliyev hər dəfə çıxışlarında Qarabağ məsələsinə toxunur, torpaqlarımızın bir gün azad ediləcəyini bildirirdi. Bunun üçün haqq səsimizin dünyaya yayılmasında misilsiz xidmətlər göstərirdi. Sonra isə dövlətimizin başçısı cənab İlham Əliyev Qarabağ məsələsini fəaliyyətinin əsas prioritetinə çevirdi. 2020-ci ilədək ötən 17 ilin hər anında, saatında bunu gördük. Ölkə rəhbərinin yüksək tribunalardan çıxışlarında, xalqa müraciətlərində, ikitərəfli danışıqlarında Qarabağ məsələsi əsas mövzu oldu.

Beləliklə iki il öncəki Zəfərimiz üçün düz 30 il hazırlıq getmişdi. Bunun üçün yollar axtarılmış, danışıqlar aparılmış, lakin çox təəssüf ki, dünya bütün bunların qarşısında susmuş, sanki deyilənləri eşitmirmiş kimi özünü aparmışdır. Çarə müharibə yolu ilə torpaqlarımızın azad edilməsinə qalmışdı ki, bunu ölkəmizin rəhbəri çıxışlarında dəfələrlə vurğulamışdı. Vurğulamışdı ki, torpaqlarımızı danışıqlar, sülh yolu ilə azad edə bilməsək, bunu hərb yolu ilə edəcəyik. Belə də oldu. Dünya susdu, ermənilərin arxasında duranlar yenə də durdu, onların yeni torpaq iddialarında olmalarına şərait yaratdılar. Biz isə onları yerlərində oturmaq üçün müharibəyə atıldıq.

2020-ci ilin 27 sentyabrında başlanan İkinci Vətən Müharibəsi bu səbəblərdən tarixin bir səhifəsinə çevrildi. O səhifə ki, orada Zəfər adlı bir qürur var. Bu Zəfəri xalqımıza bəxş edən müzəffər Ali Baş Komandanımız və milli ordumuzun qəhrəman zabit və əsgərlərindən bəhs edən şanlı bir dastan var. Bu dastan bütün dövrlərdə gənc nəsil üçün layiqli bir örnəkdir. Bu dastan hünər tarixi, şərəf tarixidir. Torpaqlarımızın-namus, şərəfimizin qurtuluş dastanıdır. Hər zaman qürur duyacağımız məqamdır.

### 30 ildən sonrakı 2 il

30 ilin sonrasındakı iki il bizim qələbəli illərimizdir. 30 il həsrətində olduğumuz Qarabağlı illərimizdir. Hicranın vüsallı illəridir. 30 il sonra doğmasının addımını duyan, hiss edən torpaqlarımızın bayram libası geyinən illəridir. Düşmənsiz, murdarlarsız illərdir. 30 il baharı qovub, payızı bağrına basan yurdlarımızın üzünün güldüyü, günəşini doğurduğu, yenidən gül-çiçəyini bitirdiyi illərdir.

Qarabağın doğmasının-anası Azərbaycanın yenidən qoynuna sığındığı, ana istiliyini, mehribanlığını, qayğısını hiss etdiyi illərdir. Düşmənin hər gün bir az da tarmar etdiyi, köksünə balta çaldığı təbiətin dincliyi illəridir. Ötən 2 il daşı daş üstündə qalmayan Qarabağın novrağına qovuşduğu illərdir. Hüsnünün hər gün bir az gözəlləşdiyi, 30 ilki qara yaylığını başından atıb allı-güllü şalını başına saldığı illərdir. Bağrından dörd bir yana şırımlanan abad yollarına baxdıqca gözlərinə işıq gələn illərdir.

Ötən 2 il Qarabağ kimi, bütün xalqın qürur illəridir. Torpağını-namusunu, şərəfini müdafiə edib düşməndən alan xalqın başını dik tutub qürurla addımladığı illərdir. Otuz 365 günün kədərinin iki 365 gündə sevincə çevrilib bütün evlərin qapılarından içəriyə keçdiyi illərdir. Bu iki il Azərbaycan tarixinin şanlı səhifələridir. Torpaqlarımızın düşməndən azad edilməsi ilə yanaşı, müzəffər Ali Baş Komandan, dövlətimizin başçısının Qarabağda dünyaya səs salan quruculuq işlərini həyata keçirdiyi illərdir. Müharibədən dərhal sonra köksü işıqlandırılan Qarabağın işıqlı günləridir. Sakinlərinin daha tez doğma yurdlarına qayıtması üçün bir-bir abadlaşdırılan rayonlarımızın yeni inkişaf mərhələsinə qədəm qoyduğu illərdir. Qürur dolu iki il tariximizin şanlı səhifəsidir...

### Zəfər Günü, Bayraq Günü...

8 noyabr-Zəfər Gününün sonrakı günündü - 9 noyabrı Bayraq Günümüz kimi bayram edirik. Bayramlar bayrama qarışır. Bütün xalqın sevinci sevincinə qarışır. Təsadüfə bax ki, 8 noyabr gəlib 9 noyabrla qonşu oldu. Yəni Zəfərimiz Bayrağımızla qonşu oldu. Bunun böyük mənası var. 32 il öncə torpaqlarımız işğal olunanda hələ müstəqilliyimiz yenicə bərpa olunmuşdu. Biz sovet rejiminin zorla başımız üzərinə qaldırdığı o al qırmızı bayrağı yenicə endirib, illərlə ürəyimizdə yaşatdığımız, bir an belə fikrimizdən, xəyalımızdan, duyğularımızdan kənar tutmadığımız üçrəngli bayrağımızı yenicə başımız üzərində dalğalandırmışdıq. Qarabağın əksər yurdlarına bu üçrəngli bayrağımızın dalğası hələ gedib çatmamışdı. Onlar elə sovet bayrağı altında işğal olunmuşdu. Qarabağ həsrətində idi üçrəngli gözəlimizin. Sən demə hələ qarşıda düz 30 il bu bayrağa həsrət də qalacaqmış.

Atalarımızın gözəl bir deyimi var: Sən saydığını say, gör, Fələk nə sayır. Həqiqətən də çox maraqlıdır. Bu iki əlamətdar günün bir-birinin ardınca düşməsində böyük bir məna, ilahi bir qüvvə var. Sanki bu bayrağa həsrət Qarabağın acısı xətrinə, 30 il bu üç rəngin sorağı ilə gözləri yollara dikilən, onun dalğası üçün canını qurban verməyə hazır olan yurdlarımızın bu əzabına görə Ulu yaradan sıraladı bu bayramları. Sözün həqiqi mənasında, fələyin saydıqlarının şahidi olduq. Fələk Zəfərimizi 8 noyabra yazmaqla Qarabağın bundan sonrakı taleyini Zəfərli, Bayraqlı-bayramlı etdi. İllərin bayraq acısını Qarabağa unutdurmaq, 30 illik bayraq həsrətinə son qoymaq üçün Qarabağın ta ömürlük Zəfəri ilə Bayrağını birləşdirdi. Bəlkə bu bir-birinin ardınca iki bayram təntənəsi Qarabağa çəkdiyi əzabları unutdurar deyə...

Milli ordumuzun qəhrəman zabit və əsgərləri 2020-ci ilin 44 günlük müharibəsində bir-bir torpaqlarımızı azad etdikcə həmin yurdlara sancdığı bayraqla Qarabağın kədərinə, nisgilinə son qoydular. Hər dəfə başının üzərində bu bayrağı gördükcə qürurlandı Qarabağ. Onun rənglərindən ilham, dalğasından güc alıb illərlə qovduğu günəşi çağırdı. "Doğ, bu ellərə işığını, istiliyini ver",- dedi. Bu işıq və istilik isə Qarabağın yenidən diçəlişi, özünə qayıdışı oldu. Əbədi işıq və qayıdış.

### Odlar ölkəsindən odlu mesaj

Qələbəmizin ikinci ildönümündə ölkə başçısının Şuşadan-bu odlar ölkəsinin Qarabağının baş tacı olan diyarından ermənilərə verdiyi mesaj dəyərinə görə qiymətsizdir. Dəmir yumruqdan sonra düşmənin canına od salan ikici zərbə gücündədir. Cənab İlham Əliyev: İkinci Qarabağ müharibəsinin dərsləri Ermənistan tərəfindən unudulmamalıdır və onlar bilməlidirlər ki, odla oynamaq onlara baha başa gələcək. Əgər orada kimsə - istər iqtidar, istər müxalifət, istərsə də xaricdən göndərilmiş, öyrədilmiş hansısa ünsür yenidən bizə qarşı hansısa bəd fikirdə olmaq niyyətindədirsə, o, bizim yumruğumuzu bir daha görəcək və son iki ilin tarixi bunu göstərdi. Hətta bu il "Fərrux" əməliyyatı, "Qisas" əməliyyatı, 13-14 sentyabr Ermənistan-Azərbaycan sərhədindəki hadisələr - bütün bunlar Ermənistan üçün dərs olmalıdır. Biz bu dərsi öyrədirik və ümid edirik ki, nəhayət, onlar bunu anlayacaqlar, boyunlarını büküb öz daxili işləri ilə məşğul olacaqlar, bizim torpağımıza göz dikməyəcəklər, Qarabağa göz dikməyəcəklər. Qarabağ bizim torpağımızdır. Rus sülhməramlılar orada müvəqqəti yerləşiblər, 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir və əgər kimsə bel bağlayırlarsa, yenə də facia ilə üzləşəcəklər.

Biz, sadəcə olaraq, bütün beynəlxalq razılaşmalara həmişə hörmətlə yanaşırıq. Biz ədalətli insanlarıq və ədalətli ölkəyik. Əgər biz hansısa öhdəliyi öz üzərimizə götürmüşüksə, onu yerinə yetiririk. Biz 2020-ci ilin 10 noyabr Bəyanatında üzərimizə götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk, iki ildir ki, yerinə yetiririk, amma Ermənistan yerinə yetirir? Yox! İkinci Qarabağ müharibəsindən dərhal sonra, sadəcə olaraq, o qədər qorxu içində idi ki, təbii, o müddəaları yerinə yetirmişdir və bir güllə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında olan əraziləri bizə qaytarıldı. Əgər qaytarmasaydı, yenə də başlarını əzəcəkdik. Amma ondan sonra? Ondan sonra yenə vaxt uzatmağa başladı. Mən bir daha demək istəyirəm, o öhdəlik hələ tam yerinə yetirilməyib. Erməni silahlı qüvvələri Qarabağda nə gəzir? Bizim səbrimiz tükənməz deyil və bir daha xəbərdarlıq etmək istəyirəm, əgər bu öhdəlik yerinə yetirilməsə, Azərbaycan lazımi addımlar atacaq.

Beləliklə iki ilin dünənində və bu günündə gördüklərimizin müqayisəsində eyni zamanda ölkəmizin gücünü, iqtisadi durumunu, xalq-iqtidar birliyini, həmrəyliyin, birliyin təzahürünü, vətəndaşların dövlətə, dövlətçiliyə məhəbbət və sədaqətini, torpağa sevgisini, gənclərimizin Vətən sevdasını, ən əsası isə dövlətimizin rəhbərinin liderlik bacarığını, dəyanətini, prinsipiallığını görür və bütün bunlar üçün qürur hissi keçiririk. Nə gözəl ki, Azərbaycanlıyıq!

**Mətanət Məmmədova**

# Yeni Azərbaycan Partiyası- 30

## YAP- şərəfli inkişaf yolu keçən partiya!

### *Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilib*



**Şuşa**





***Noyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Şuşa rayon təşkilatı tərəfindən partiyanın yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə Şuşa şəhər 1 nömrəli tam orta məktəbin binasında yerləşən xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib.***

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş videoçarx nümayiş olunub.

Tədbirdə YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev çıxış edərək bildirib ki, məhz 30 il əvvəl xalqının ictimai-siyasi, mədəni-mənəvi və intellektual intibahında əvəzsiz yeri olan Yeni Azərbaycan Partiyası bir siyasi təşkilat kimi təşəkkül tapmağa başlayıb. Partiya yarandığı gündən ölkədə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edib, müstəqil Azərbaycanın yüksəlişinə, tərəqqisinə öz töhfələrini əsirgəməyib.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib ki, xalqın taleyində müstəsna rol oynayan, Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, bir sözlə, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib davamlı sabitlik, tərəqqi və iqtisadi yüksəliş yoluna çıxaran bir siyasi qüvvənin - Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümü ölkəmizin hər bir guşəsində təntənəli şəkildə qeyd olunur. Çünki ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası ötən müddət ərzində milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin təminatçısı qismində çıxış edib. B.Muradova çıxışında vurğulayıb ki, Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Ordumuzun misilsiz qəhrəmanlığı Azərbaycan xalqı 44 gün ərzində ərazi bütövlüyümüzü bərpa etdi.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı zamandan keşməkeşli yol keçib və ümumxalq partiyasına çevrilib: "Artıq işğaldan azad olunmuş bütün şəhərlərin baş planı hazırlanıb və təsdiqlənib. Qarabağda aparılan nəhəng quruculuq işləri dövlətin siyasi iradəsini və xalqın ruh yüksəkliyini ortaya qoyur. Azərbaycan cəmi iki il ərzində miqyası çox böyük olan işlər görüb. Dövlətlər var ki, bu işləri reallaşdırmaq üçün onilliklər sərf edir."

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov isə çıxışında söyləyib ki, Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə milli musiqimizin beşiyi, Qarabağın gözü olan Şuşada aparılan bərpa-quruculuq işlərinin miqyası və sürəti hər kəsdə dərin məmnunluq hissi doğurur: "Şuşanın tarixi abidələrinin bərpasına start verilib. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Bu layihələrin icrasından sonra Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Biz Şuşalılar hər zaman olduğu kimi, bu gün də ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin ətrafında sıx birləşmişik, ölkəmizdə gedən çoxsahəli islahatların iştirakçısı olduğumuza görə qürur duyuruq."

Tədbirdə, həmçinin şəhid mayor Xəyal Məmmədovun həyat yoldaşı Röyalə Məmmədova, rayon təşkilatının veteran üzvü Elxan Ələkbərov, 24 nömrəli ərazi partiya təşkilatının sədri Kəmalə Səfərova, Vətən müharibəsi qazisi Tural İsayev çıxış edərək partiyanın bundan sonra da ardıcıl uğurlar qazanacağına əminliklərini bildiriblər.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri fərmanla təltif edilib. YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.

### Abşeron

Noyabrın 10-da Abşeron rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev bildirib ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı zamandan keşməkeşli yol keçib və ümumxalq partiyasına çevrilib: "Ümummilli Liderin qətiyyəti və iradəsi hesabına yaradılan və bu gün istər ölkə daxilində, istərsə də regionda lider partiya olan Yeni Azərbaycan Partiyası həm ölkə daxilində cərəyan edən siyasi proseslərdə, həm də beynəlxalq əlaqələrdə böyük uğurlara imza atıb. Ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası xalqımızın və ölkəmizin həyatına fundamental dəyişikliklər gətirməklə yanaşı, siyasi mübarizələrlə dolu çətin və şərəfli bir yol keçib. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə görülən işlərdə YAP-ın misilsiz xidmətləri var. Şərəfli inkişaf yolu keçən partiya müstəqillik dövründə ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayır, sıraları ildən-ilə genişlənir. 2003-cü ildən ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası daha da inkişaf etdi, regionun aparıcı siyasi təşkilatına çevrildi".







YAP Veteranlar Şurasının üzvü Əli Həsənov Azərbaycanın bugünkü uğurlarının fonunda dünənimizə nəzər salaraq cəmiyyətin avanqard qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının yaradılmasını şərtləndirən amillərdən bəhs edib. Ə.Həsənov bildirib ki, dövlətə, xalqa xidmət partiyanın fəaliyyətinin ana xəttini təşkil edir: "Yarandığı gündən sözlə əməl birliyi partiyanın nüfuzunu gündən-günə artırır, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir. Partiyanın irəli sürdüyü hər bir təşəbbüs, qəbul etdiyi qərarlar Azərbaycanın daha da qüdrətlənməsinə, xalqımızın yüksək rifah şəraitində yaşamasına xidmət edir".

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı 30 il öncə Azərbaycanda mövcud ağır durumun yeni bir siyasi təşkilatın yaranması zərurətini ortaya qoyduğunu qeyd edib. Vurğulayıb ki, bu məqsədlə Azərbaycanın bir qrup qabaqcıl ziyalısının xalqın iradəsini ifadə edən müraciətinə cavab olaraq ulu öndər Heydər Əliyev YAP-ın yaradılmasına razılıq verdi: "YAP müstəqilliyə qovuşan ölkəmizin həyatında ən təlatümlü, həyəcanlı zamanda yaradıldı. Təsis edilməsinin 30-cu ildönümünü isə partiyamız ölkə tarixinin ən şanlı günlərində qeyd edir".

***Ardı Səh. 11***

# Yeni Azərbaycan Partiyası- 30

## YAP- şərəfli inkişaf yolu keçən partiya!

*Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilib*

Əvvəli-Səh-10

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev partiyanın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, gələcək hədəflərdən danışıb. O bildirib ki, 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısının Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi Ümummilli Liderə sarsılmaz inam və etimadın ifadəsi idi. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Yeni Azərbaycan Partiyasının həyatında da yeni mərhələnin əsasını qoydu. Vurğulayıb ki, ölkəmiz 1993-2003-cü illərdə Yeni Azərbaycan Partiyasının qurucusu, müasir müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin rəhbərliyi ilə tarixi nailiyyətlər qazandı və güclü dövlətə çevrildi.




Tədbirdə Saray 3 saylı orta məktəbin direktoru Təyyibə Hüseynova və şəhid Elçin Həsənlinin anası Xatirə İsmayılova çıxışlarında partiyanın Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf və qələbə yolunda əmin addımlarla irəlilədiyini söyləyiblər.

Sonda YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub. Bir qrup fəal gənc isə YAP Abşeron şəhər təşkilatı tərəfindən fəxri fərmanlarla təltif edilib.



### İsmayıllı

Noyabrın 10-da Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illik yubileyi münasibətilə İsmayıllı rayonu Mədəniyyət Mərkəzində tədbir keçirilib.

Tədbirdən əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov bildirib ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası böyük inkişaf yolu keçib: "Ötən müddət ərzində Yeni Azərbaycan Partiyasının keçirdiyi qurultaylarda qəbul etdiyi tarixi qərarların Azərbaycanın uğurlu inkişafının təmin olunmasında böyük rolu olub. Bu gün hər bir Azərbaycan vətəndaşı, partiyanın hər bir üzvü Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfərimizdən qürur duyur."

Tədbirdə çıxış edən İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov vurğulayıb ki, Azərbaycanın son illərdə əldə etdiyi böyük nailiyyətlər Ulu Öndərin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. Qeyd olunub ki, partiyanın quruculuq prinsipləri əsasında həyata keçirilən tədbirlər nəticəsində İsmayıllı rayonunun bütün yaşayış məntəqələrində geniş quruculuq-abadlıq işləri aparılıb, yeni yollar salınıb, sakinlərin rahat yaşaması üçün zəruri infrastruktur qurulub, bütün idarə, müəssisə və təşkilatlar üçün müasir iş şəraiti yaradılıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin çıxışında Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi mürəkkəb və şərəfli yoldan söhbət açıb. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığını, bu uğurların zirvəsində tarixi Zəfərimizin dayandığını vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov bildirib ki, Yeni Azərbaycan Partiyası milli dövlətçilik ənənələrinin formalaşmasında həlledici rol oynayaraq, xalqın sevgisi və dəstəyi ilə ümumxalq partiyasına çevrilib: "Çox zəngin, siyasi mübarizələrlə dolu şanlı tarixi olan YAP 30 illik fəaliyyəti dövründə müstəqil Azərbaycanın inkişafında son dərəcə mühüm rol oynayıb, dövlətçiliyimizin, dövlət müstəqilliyimizin qarantı olub. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu bu partiya qısa vaxt ərzində təşkilatlanaraq ölkənin ən güclü siyasi qüvvəsinə çevrilib".

Tədbirdə, həmçinin partiya veteranı Valeh Salehov, İkinci Qarabağ müharibəsi şəhidi, mayor Sübhi Mürsəliyevin anası Cəmilə Əkbərova, İsmayıllı rayon İvanovka kənd Bələdiyyəsinin sədri, İvanovka ərazi partiya təşkilatının sədri Oleq Radayev, İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin müəllimi Tacəddin İbadov çıxış edərək ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərinin miqyasının ölçüyəgəlməzliyindən, YAP-ın ölkəmizin tarixində mühüm rolundan bəhs ediblər. Bildiriblər ki, tarixi Zəfərimiz harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını qürurlandırır və hazırda işğaldan azad edilmiş torpaqlarımızda aparılan geniş bərpa-quruculuq işlərində hər bir partiya üzvünü yaxından iştirak etməyə çağırırıq.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup partiya üzvünə fəxri fərmanlar, partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi, bir qrup müharibəs iştirakçısına isə "Vətən müharibəsi iştirakçısı" medalı təqdim olunub.

## Şahmat turniri davam edir









***Noyabrın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş şahmat turnirinin play-off mərhələsinə yekun vurulub.***

**Play-off mərhələsində qalib gələn kişilər üzrə Yasamal, Quba, Saatlı, Göygöl, Hacıqabul, qadınlar üzrə isə Nəsimi, Sumqayıt, Ağcabədi, Gəncə, Zaqatala komandalarının iştirakçıları noyabrın 12-də Bakı Gənclər Mərkəzində keçiriləcək final mərhələsində I-III yerlər üzrə mübarizə aparacaqlar.**

***Bir əsrdə ikinci dəfə dövlət yaratmaq fürsəti qazanmış Azərbaycanın başının üstünü müharibə, işğal təhlükəsi alanda indi özünü "ədalətin carçısı" adlandıran dövlətlər susmuşdular. Yox, onlar sadəcə susmamışdılar, həm də bizdən torpaq qoparmaq istəyənlərə dəstəyini də əsirgəmirdilər. Niyə, bizə qarşı olan bu düşmənçiliyin arxasında nə dayanırdı? Birini başa düşdük, dağılan bir ölkədən bizim qopmamızı istəmirdi, o birisi - İran isə…***

# Viran İran və Ermənistan

RAKURS



Sosial şəbəkələrdə tanıdığım birisinin yazısını oxudum, İranı vəsf edirdi. Yazırdı ki, birinci Qarabağ müharibəsində İran bizə yardım edib. Nə yardımı, kimə, bu barədə mücərrət fikirlər havada uçurdu. Əslində birinci Qarabağ müharibəsində İran ərazisindən bizə yardımlar olub, ancaq bu yardımlar molla rejiminin lütfü sayəsində yox, İran adlanan ərazidə yaşayan bizim soydaşlarımız tərəfindən, bunu qarışdırmaq lazım deyil. Amma bəzi "mütəxəssislər", "ekspertlər" hələ də hədəfi müəyyənləşdirə,pisi yaxşıdan ayıra, hadisələrə düzgün qiymət verə bilmirlər.

Mollaların idarə etdiyi Tehran rejimi heç vaxt Azərbaycana yardım etməyib, haqq işimizdə yanımızda olmayıb, "müsəlmandır, şiədir" deyib dindaşına əlini uzatmayıb. Əksinə, türkün düşməni olduğunu açıq şəkildə büruzə verib. Uzağa getməyək, bu gün nələr baş verir? İran müharibənin gedişində Xudafərin körpüsünə yaxınlaşan Azərbaycan silahlı qüvvələrinin yolunu kəsməklə əməliyyatı düz iki gün gecikdirmişdi, Qarabağın işğaldan azad edildiyini görüb işğalçı Ermənistana açıq dəstək verirdi. Müharibədən sonrakı dövrdə müxtəlif bəhanələrlə, guya Azərbaycanın hansısa xarici ölkələrdən biri ilə əməkdaşlığı İranın təhlükəsizliyinə təhdiddir, uydurması ilə sərhədlərimizdə əzələ nümayiş etdirməsi Tehranın iç üzünü bir daha nümayiş etdirdi. Qarabağ və Şərqi Zəngəzurda aparılan böyük quruculuq və tikinti işlərindən, Zəngəzur dəhlizinin açılacağından əhvalı dəyişən, halı pəjmüdə olan molla rejimi bunu açıq şəkildə, müxtəlif göztərilərlə büruzə verməklə Ermənistanı da əks addım atmağa təhrik etdi. Müharibədən məğlub ayrılan Ermənistan əvvəllər Azərbaycanın "Zəngəzur dəhlizi" planına məcburi şəkildə loyal yanaşdığı halda, mollaların dəstəyindən ruhlanaraq son zamanlar baş qaldırmağa başlayıblar. İndi siz deyin, İran viran olası dövlətdir, ya yox? İran bizə düşməndir, ya dost?

İranın Azərbaycanda çevriliş etmək cəhdi, guya "naxçıvanlıların İrana birləşmək" iddiası barədə saxta müraciətlər barədə də yəqin eşitmisiniz? Bundan başqa, Dövlət Təhlükəsizlik Xidmətinin peşəkarcasına İranın casus şəbəkəsini ifşa etməsini, Qafanda tələm-tələsik İran konsulluğunun açılmasını da bura əlavə etsək, əslində iki dövlət arasında münasibətlərin normal olmadığını görə bilərik. Tehran rejimi Azərbaycanın dünya xəritəsindən silinməsi üçün bütün imkanlarından yararlanmaqdadır

### Bəs mollaların idarə etdiyi İranda nə baş verir?

On milyonlarla soydaşımızın yaşadığı, mövcudluğunu sürdürdüyü İranda daxili vəziyyət acınacaqlıdır, ixtişaşlar, etiraz aksiyaları artın üçüncü ayına keçib. Qanla gələn rejim elə o yolla da varlığına son qoymaqdadır. İranın quru qoşunlarının komandanının "Xomneyi həzrətləri əmr versə, etirazları bir günə yatırarıq" fikri çox təhlükəli, həm də normal insanın söyləyə bilməyəcəyi fikirlərdir. Dövlətin ordusu xalqa atəş açarmı? Normalda yox, anormal cəmiyyətlərdə isə nə desən baş verər. Məhsa Əmininin öldürülməsindən dörd həftə sonra Avropa İttifaqı İranda etirazların zorakılıqla yatırılmasına görə məsuliyyət daşıyanlara qarşı sanksiyalar tətbiq edib. Artıq növbəti sanksiyalar paketi üzərində işlər gedir. Gələn həftə onu qəbul etmək mümkün olacaq.

Bu arada Tehranda təhlükəsizlik məsələləri üzrə Rusiya-İran məsləhətləşmələri aparılıb. Məsləhətləşmələr iki ölkənin nazirlik və idarələrin nümayəndələrinin iştirakı ilə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxani tərəfindən keçirilib. Tərəflər hüquq-mühafizə sahəsində, o cümlədən ictimai təhlükəsizliyin təmini, terrorizm və ekstremizmlə mübarizə sahəsində ikitərəfli əməkdaşlıq məsələlərini ətraflı müzakirə ediblər. Görüşdə həmçinin informasiya təhlükəsizliyi mövzusuna toxunulub, Qərbin xüsusi xidmət orqanlarının hər iki ölkənin daxili işlərinə müdaxiləsinə qarşı tədbirlər masaya yatırılıb. Beynəlxalq Atom Enerjisi Agentliyi (BAEA) ilə İran arasında nüvə sazişi üzrə noyabrın əvvəlində Vyanada aparılan danışıqlar isə heç bir nəticə verməyib. Bunu təşkilatın rəhbəri Rafael Qrossi də təsdiq edib.

### Molla rejimi fətva verib

İranda keçirilən etiraz aksiyalarında 50-si uşaq olmaqla 321 aksiyaçı Tehran rejiminin hərbi-polis qüvvələri tərəfindən qətlə yetirilib. Etiraz aksiyasında rejimin ən əsas güc strukturlarının rəsmilərinin ailə üzvləri də iştirak edirlər. İran hakimiyyətinin əsas dayağı olan İnqilab Keşikçiləri Qvardiyasının (SEPAH) Urmiya şəhər şöbəsinin siyasi-ideoloji bölməsinin rəisi Əliəsgər Şirməhəmmədinin oğlu Mürtəza Şirməhəmmədi də aksiyada qətlə yetirilib. Mürtəza Güney Azərbaycanın Təbriz Tibb Elmləri Universitetində təhsil alırmış. SEPAH nümayəndəsi oğlunun ölüm faktını 5 gün ictimaiyyətdən gizlədib.

İranda ictimai-siyasi fəallar cəmiyyətin dəyişməsini istəyirlər. Müşahidələr onu deməyə əsas verir ki, ölkədə hər gün çoxlu sayda etirazçı saxlanılır. Bu, inqilabdan sonra müasir İranın tarixində ən uzunmüddətli aksiyadır. Beynəlxalq ictimaiyyət tərəfindən də dəstəklənən aksiyalarda 15 mindən çox etirazçı saxlanılıb, 1400-dən çox həbs edilən şəxsə qarşı ittiham irəli sürülüb və onları ölüm hokum gözləyir. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib ki, İran hakimiyyəti etiraz aksiyalarına görə Ağ Evi ittiham edir: "Ancaq reallıq belədir ki, Tehran hakimiyyəti yaratdığı problemlərlə üzləşib". O, ABŞ Prezidenti Cozef Baydenin "İranı azad edəcəyik" fikrinə belə münasibət bildirib: "Bu, çox güclü etirazdır. Aksiyaların bizimlə və ya başqa bir xarici aktorla heç bir əlaqəsi yoxdur".

### Etirazçılara beynəlxalq dəstək

Dövlət Departamentinin sözçüsü ümummilli etirazları İran xalqının həqiqi, qanuni və səmimi istəklərinin nəticəsi kimi qiymətləndirərək aksiyaların davam etməsinə səbəb kimi cəmiyyətlə hakimiyyət arasında əlaqələrin zəif olmasını göstərib. O vurğulayıb ki, rəsmi Vaşinqton etirazlara qarşı amansızlıq göstərdiyi üçün İran hakimiyyətini məsuliyyətə cəlb etmək yollarını axtarır. Birləşmiş Ştatların dövlət katibi Antoni Blinken isə bildirib ki, ABŞ dünyanın iranlıların səsini eşitməsi üçün yardım edəcək.

Böyük Britaniyanın yeni Baş naziri Rişi Sunak molla rejiminin etirazçılara qarşı davranışını sabitliyin pozulmasının başlıca səbəbi sayır. Fransa və Almaniya liderləri də Tehran rejimini ittiham edirlər. Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin-Salman xəbərdarlıqla yanaşı qeyd edib ki, İran vətəndaş müharibəsindən qurtula bilməyəcək və bu ölkəni böyük fəlakət gözləyir. Vəliəhd molla hakimiyyəti ilə qarşılıqlı anlaşma əldə etməyin mümkünsüz olduğunu deyib. Bildirib ki, Tehran rejimi müsəlmanların qibləsini - Kəbəni ələ keçirmək istəyirlər: "Biz Səudiyyə Ərəbistanının döyüş meydanına çevirilməsini gözləyə bilmərik".

İrandakı molla hakimiyyəti isə yenə yeni düşmən axtarışındadır. ABŞ, İsrail və digər ölkələri, o cümlədən, Azərbaycanı şərləmək idiasını gizlətmir. ETTELAAT-ının başçısı deyib ki, İran dağılsa bundan əvvəl şüşə saraylar dağılacaq, heç bir ölkə təhlükəsiz olmayacaq. Son dəqiqələrdə alınan məlumata görə, SEPAH-ın İraqda yaratdığı "Həşd-Şəəbi" adlı silahlı dəstənin bir qrupu aksiyaları yatırmaq və ölkədə baş verə biləcək hadisələrin qarşısını almaq məqsədi ilə İrana gətirilib. Bununla da xalqın üstünə ordu yeridən rejimin sona çatdığını söyləyə bilərik

Mollanın xristian dostu

İranın dostu Ermənistanda isə müharibədə aldığı zərbədən ayılma isterikası hökm sürür. Tam nəyin baş verdiyini hələ də anlamayan ermənilərin sayıqlamaları davam edir. Fransanı və İranı arxasına alan rəsmi İrəvan Azərbaycan Prezidenti İlham Əliyevin Şuşada verdiyi mesajları həzm-rabeədən keçirməkdə deyəsən çətinlik çəkirlər. Düzdür, "ağıllı" ermənilərin bir qismi reallıqla barışıblar, Azərbaycanla zarafatın ağır olduğunu dərk edirlər. Amma gözü başqaların əlində qalan Paşinyan hakimiyyəti "nala-mıxa" vurmaq siyasəti yürüdürlər. Ölkə ictimaiyyəti də hakimiyyətin bu siyasətindən artıq bezib. Ermənistanın rəsmi dairələrini Prezident İlham Əliyevin Əlcəzairdəki məlum çıxışı və mesajları da bərk narahat edib. Onlar Ermənistanın ünvanına deyilənləri həzm etsələr də, "böyük bacıları" Fransanın hədəf seçilməsindən, Fransanın Əlcəzairdə 1,5 milyon əlcəzairlini qətlə yetirməsinin xatırlanmasından heç razı görünmürlər.

Ermənilər İran barədə deyilənləri də qəbul etməkdə çətinlik çəkirlər. Prezidentin "Bizim Ordumuz qəhrəmanlıq, peşəkarlıq, fədakarlıq göstərib. Lazım olarsa, bir daha göstərərik, istədiyimizə nail olarıq, bunu hər kəs bilir və bizim sərhədimizdə Ermənistana dəstək olaraq hərbi təlim keçirənlər də bilsinlər. Bizi heç kim qorxuda bilməz", fikirləri ermənilərin yaltaqlıq emosiyalarını bir az da artırıb. İrana yarınmaq, Tehranın üstümüzə qaldırmaq üçün dəridən-qabıqdan çıxırlar. Təki iki müsəlman dövləti müharibəyə başlasın. Bunu Azərbaycan çox gözəl anlayır və eskalasiyanın, qarşıdurmanın baş verməməsi üçün maksimum səy göstərin, dözümlülük nümayiş etdirir. Amma qarşı tərəf necə, erməni təhrikinə uyacaqmı, yoxsa..?

**V.VƏLİYEV**

# Şəhidlik zirvəsinə aparan yol

*Bir xalqın, bir millətin vətən oğullarının torpağa can fəda etməsi. Vətəni öz canından əziz tutanlar düşünmədən od-alov içinə atılırlar. Od püskürən müharibə alovuna. Neçə-neçə arzular qoynunda Vətən sevgisini ən yüksəkdə tutmaq aşiqliqdir, Vətənə sevgidir. İllərdir ki, xalqımız düşmənin iyrənc əməllərindən terror aktlarından əziyyət çəksə də məğrurdur, yenilməzdir.*











Çünki onu dünyaya gətirən Ana vüqarlıdır, torpağı əzəmətlidir. Erməni anası kimi övladını qisasla böyüdən ana yox, əqidəsi, gücü ilə dünyaya səs sala biləcək oğul böyüdüb. Qalx, ayağa, Azərbaycan! - deyəndə bir nəfər kimi uşaqdan böyüyə qədər hər kəs ayağa qalxıb. 30 ilə yaxın işğal dövründə Azərbaycan hər zaman bu qisası almağa, ucadan-uca üçrəngli qürurlu, əzəmətli Azərbaycan Bayrağını vətən torpağı üzərində məğrur-məğrur dalğalanacağı günün lap yaxında olduğunu yaxşı bilirdi. Vətən torpağına axıdılan şəhid qanının, qoca, qadın və uşaqların qışın sərt sızağında, yayın istisində el-obasından didərgin düşməsinin qisasının alınacağı günü səbirsizliklə gözləyirdi igid oğullarımız. Zaman yetişdi. Torpaq nəfəs aldı şəhid qanı ilə, sanki rahatlığına qovuşdu. Bu gün onların hər birinin həyat yolu bizlərə, yetişəcək gələcək nəsillərə bir nümunəvi məktəbdir, ərənlik, kişilik məktəbi. Elə haqqında söhbət açacağımız Azərbaycanın şəhid oğlu Kamran Quliyev Dadaş oğlunun vətənpərvərlik, qeyrət simvoluna çevrilən bir ömür yolu kimi. Vətən ucalığı, vətən sevgisi bir oğulun da ömür yolunu yarımçıq qoysa da ona əbədi yaşamaq hüququnu verdi. Vətən üçün hər kəsin cavabdeh olmasını yaxşı anlayırdı Kamran. Üçrəngli bayrağımızın uca tutulması onun müqəddəs amalı idi.

Əfsanələşən bir ömür payı. Bu Kamrana da nəsib oldu. Çox ağır və qürurludur şəhid oğullardan yazmaq. Bəzən düşünürsən ki. birdən hansısa bir fikri onun ünvanına söyləyərkən qəhrəman oğullarımızın hünərini, vətənpərvərlik duyğularını lazımı şəkildə ifadə edə bilməzsən. Belə insanların ömür yolundan yazmaq şərəfdir. Qəhrəmanlıq zirvəsinə yüksələn Quliyev Kamran Dadaş oğlu zirvədən enməyəcək bir yüksəklikdə özünün əbədi məşəlini yandırdı. Hamı kimi uşaqlıq illərini yaşadı. 1992-ci ilin 11 may tarixində Salyan rayonunda dünya gəldi. Şuşanın işğalından üç gün sonra. Azərbaycanda hadisələrin gərgin olan bir dövründə. Ermənilər ötən əsrin 90-cı illərin əvvəllərində dünya ictimaiyyətinin gözü qarşısında Azərbaycanın tarixi torpaqları olan Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı kimi məkanlarımızı işğal etdi.Əlbəttə ki, körpə böyüdükcə onun torpağa, eləobaya bağlılığı yoğrulduğu ana laylalarından kök atmağa başlayır. Kamranın da ana laylasından, ana südündən vətənə sevgi bütün varlığına hopur. Vətənlə bağlı düşüncələri, vətənpərvərlik tərbiyəsi, vətəni sevmək kimi ali dəyərləri kiçik yaşlarından əxz olunur. Məktəb yaşına çatanda bütün yaşıdları kimi, birinci sinfə gedir. Salyan rayon 7 №li tam orta məktəbdə təhsil alır. Parta arxasında olduğu illərdə qisası qiyamətə qoymamaq kimi fikri vətənsevər oğullar kimi onun da ruhi, əqli, mənəvi dünyasına hakim olur. Amma bilmirdi ki, zaman yetişəcək o, bir evin, bir ailənin yox, Azərbaycan dünyasının övladına çevriləcək. Onun haqqında yazılacaq yazılarda igidlik, qəhrəmanlıq şücaətindən söz açılacaq. 2011-ci ildə əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsində başa vursa da, elə həmin ildən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. 28 illik ömür yolunda o da çoxları kimi düşməndən intiqam almaq hissi ilə yaşayır. Ali Baş Komandanın əmrini gözləyirdi ki, düşmənə dərsini versin. Sentyabrın 27-də Vətən müharibəsi başlayanda o da mürahibəyə yola düşür. Düşmənin ağır itkilərə məruz qoyulmasında onun da pay var. Tovuzdan başlanan döyüş yolu Cəbrayılda, Füzulidə davam edib. Füzuli istiqamətində aparılan döyüşlərdə şəhid olur. 6 oktyabr 2020-ci il tarixində onun ön cəbhədə son döyüşü olur. Kamran torpaqlarımızın işğalçılardan azad olunması yolunda şəhid olur.

Dünyaya, ən əsası da erməniyə Azərbaycan gücünü, Azərbaycan oğullarının cəsarətini, qəhrəmanlığını göstərən şəhid olullarımız sırasında bu gün Quliyev Kamran Dadaş oğlunun da adı var. Fəxarətimiz olan Şəhidlər. Sizlər, Quliyev Kamran Dadaş oğlu elə bir abidə yaratmısınız ki, kimsə buna toxuna bilməz. Torpaq yolunda Şəhidlik hər kəsə nəsib olmur. Əlbəttə ki, Kamranı yaşadığı zaman, doğulduğu torpaq, vətənpərvərlik ruhu şəhidlik zirvəsinə yüksəltdi. Azərbaycan xalqı ermənilərə dərs verdi. Qəhrəmanlıq hər kəsə nəsib olmur, torpaq yolunda Şəhidlik də hər kəsə nəsib olmur. Bu adları Azərbaycan torpağının yetirdiyi oğullarımız qazandı. Vətən üçün hər kəsin cavabdeh olmasını yaxşı anlayırdı, bizim şəhid Kamran. Bu gün onun ruhu şaddır. Ali Baş Komandan İlham Əliyevin xalqımıza qələbə müjdəsini verərkən şəhidlərimizin ruhu şad oldu, onların qisası alındı. Vətən ərazisi, sərhədləri bəlli müqəddəs məkandır. Tarix boyu yadelli işğalçıların, imperiyanın, erməni daşnaqlarının hücumuna məruz qalsa da məğrur dayanıb. Bu gün də Azərbaycanın mərd oğulları Azərbaycan ordusunun əzmini ermənilərə göstərdi. Azərbaycan ordusu mərdimərdanə döyüşərək, düşməndən işğalda olan torpaqlarımızı azad etdi. Yağı düşmənlərimizə qarşı vuruşan oğullarımız üçrəngli - ay ulduzlu bayrağımızı işğaldan azad olunmuş torpaqlarımıza sancdılar. Bu gün Kamranın iki övladı onun ocağında böyüyür: Tunar və Ümid. Vətən üçün əmanətdir bu oğullar. Ordumuzun düşməni necə məhv etməsi haqqında kitablardan oxuyacaqlar, çəkilən filmlərə baxacaqlar. Azərbaycan əsgərinin işğaldan azad olan torpaqlarımaza üçrəngli müqqəddəs bayrağımızın necə sancmalarını görəcəklər. Onda atalarının müqqəddəs bir iş üçün şəhid olduğunu daha dərindən anlayacaqlar. Azad ölkədə böyüyüb boya-başa çatacaqlar. Bu torpaq hamınındır, hər bir Azərbaycanlınındır. Qorumaq, müdafisində durmaq hər birimizin məsuliyyətidir. Tökülən qanlar həsrətdən cadar-cadar olmuş Qarabağ torpağını bizlərə qovuşdurdu. O yerlərə dönürük. Allah şəhidlərimizə rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

## Bakcell Qarabağda 101-ci baza stansiyasını istifadəyə verdi!

Bakcell şirkəti Qarabağda özünün 101-ci baza stansiyasını uğurla istifadəyə verib. Bununla da şirkət ilin əvvəlində qarşıya qoyulan plana uyğun olaraq 2022-ci ildə işğaldan azad olunmuş ərazilərdə şəbəkəsinin genişləndirilməsinə 23 milyon manat həcmində investisiya yatırıb.

Burada quraşdırılmış 4G baza stansiyaları sayəsində abunəçilər ən müasir səs texnologiyası olan VoLTE üzərindən daha sürətli, aydın və kəsintisiz zəng edə bilirlər. 2022-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

Şirkət işğaldan azad edilmiş ərazilərimizin bərpası və zəruri infrastrukturun yaradılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdə fəal iştirakını davam etdirəcək.

SİYASİ RAKURS+ÖZƏL



# Fransa Aİ-ni özü ilə bağlı hansı fəsadlara doğru sürükləmək istəyir?



## Yaxud, Ermənistanın böyük bacısı Avropanı Rusiyanın diktəsi altına doğru apara biləcəkmi?

Məlum olduğu kimi, Fransa Senatının ermənipərəst deputatları noyabrın 15-də Azərbaycan əleyhinə bir sıra sanksiyaların tətbiq edilməsi ilə bağlı məsələni gündəmə gətirəcəklər. Daha dəqiq desək, artıq bu məsələ gündəmdədir, sadəcə, qalır embarqo tətbiqinin rəsmiləşdirilməsinə ki, həmin tarix noyabrın 15-nə təsadüf edir. Beləliklə, ölkəmizin əleyhinə, Ermənistanın isə lehinə olan sözügedən qərar qüvvəyə minərsə Fransa Ermənistanı nəinki iqtisadi cəhətdən, həm də hərbi cəhətdən öz himayəsinə ala, Azərbaycana qarşı isə daha mənfur addımlarını ata bilər.

### Azərbaycan və dostları on minlərlə imzaya hesablanmış petisiya hazırlayıb

Əbəs deyil ki, artıq Azərbaycanın fəal ictimai rəyinin təşəbbüsü ilə qətnamənin qəbulu əleyhinə petisiya da imzalanmaqdadır və bu petisiya Senata təqdim olunacaq. O cümlədən, petisiya Azərbaycanın Qazaxıstan, Özbəkistan və s. ölkələrdəki dostları tərəfindən də imzalanmaqdadır. Orta hesabla toplanası olan 100 minlik imzanın artıq hazır olduğu barədə məlumatlar da var.

Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, Fransanın özü qətnaməni qəbul edərsə bu zaman onun özü hansı məqamlarla qarşı-qarşıya qalar..?



### Senat və Makron Fransa hökumətinin başına hansı problemləri yağdıracaq?

Söz yox ki, bu, ilk növbədə, Azərbaycanın bu ölkə ilə diplomatik və iqtisadi əlaqələrinə ciddi mənfi təsirlərini göstərəcək, hətta bu əlaqələrə son da qoyula bilər. Eyni zamanda, Fransa Senatı anti-Azərbaycan qətnaməsini qəbul edəcəyi halda bu ölkə Azərbaycanın neft və qazının əldə olunması ilə bağlı yarana biləcək problemləri, fəsadları öz üzərinə götürə, yaxud buna görə Avropa ölkələri qarşısında cavabdehlik daşıya biləcəkmi? Çünki Senatın ermənipərəst deputatlarının, eləcə də prezident Emmanuel Makronun mövcud məsələni dəstəkləmələri növbəti problemləri Fransa hökumətinin başına yağdıracaq:

**Beləliklə..!**

1.Rusiya qazını Azərbaycan qazı ilə əvəzləyən Avropa İttifaqı ölkələri yenidən Rusiyanın təsiri altına düşməli və Moskvanın qərarlarından asılı olacaqlar. Məsələn, Moskvanın diktəsi ilə onlara sərf etməyən şərtlərlə razılaşmaqdan başqa çarələri qalmayacaq. Üstəlik, qlobal iqtisadi problemlər müstəvisində başda Fransa olmaqla Avropa ölkələri kifayət qədər maliyyə itkilərinə məruz qalacaqlar.

2. Fransa öz qazını bəzi ölkələrlə paylaşa biləcəyinə hazır olduğunu bəyan edib. Və əgər Aİ Azərbaycan qazının ixracına qarşı embarqonun qüvvəyə minməsi ilə bağlı qərarı dəstəkləyərsə Fransa özü-özünü ciddi itkilərlə qarşı-qarşıya qoymalı olacaq. Əbəs deyil ki, bu haqda İsveçrənin aparıcı iqtisadi nəşri - "L'Agefi" qəzeti yazıb.

Nəticədə, Fransanın Ermənistana böyük bacılıq prinsipindən yanaşmasının, əslində, təkcə Fransanın özünə deyil, həm də Aİ ölkələrinə də nə qədər mənfi təsirlərini, fəsadlarını göstərəcəyini təsəvvürlərdə canlandırır. Bu baxımdan, artıq Avropa İttifaqında olan bir sıra siyasi-iqtisadi mərkəzlər Fransa Senatının qaldıracağı məsələyə qarşı çıxış edir, üstəlik rəsmi Parisin Ermənistana görə Avropanı nə qədər çətin vəziyyətə doğru sürüklədiyini bildirirlər.

Ancaq daha bir mühüm fakt budur ki, Fransanın mövcud siyasətinin Azərbaycana təsir, təzyiq mexanizmlərini reallaşdırması cəhdləri ölkəmiz, dövlətimiz tərəfindən ciddi müqavimətlə rastlaşacaq. Ermənipərəst Senat istədiyi addımlarını ata bilər, amma bu addımı ilə bağlı özünün nə qədər acınacaqlı vəziyyətə düşməsini də artıq öz günahı hesab etməlidir...

*Rövşən RƏSULOV*



Mətanət Məmmədova

# Ağ bayraq gününüz mübarək!

***44 günlük Vətən müharibəsinin sonuncu günü-10 noyabr xalqımız üçün nə qədər qürurverici gündürsə, erməni xalqı üçün əgər dərk edirlərsə, bir o qədər kədərli gündür. Onlar əsrlər sonra da 10 noyabrı ağ bayraq günü kimi xatırlayacaqlar. Beləliklə ağ bayraq gününüz mübarək, erməni xalqı!***

Atalarımızın çox gözəl, düşünülmüş, yerində deyilmiş deyimləri var. Onlardan biri də "bu günün sabahı da var" deyimidir. Bəzi insanlar yalnız bu gün üçün yaşayırlar. Düşünürlər ki, bu gün hər gün olacaq. Ona görə də bir metr qarşını görmə qabiliyyətini itirir və öz aləmlərində yaşamağa başlayırlar. Məsələn, ermənilər kimi. 30 ildə nələr etmədilər? Düşündülər ki, bu gün hər gün olacaq. Lakin düşünmədilər ki, bu günün sabahı da var. Və o sabah necə açılacaq, onu Yaradandan başqa heç kim bilmir.

Bir zamanlar süfrəmizin artıq-urtuğuyla qarnı doyanlar bir azca dirçələn kimi başladılar özlərinə yer etməyə. Dedilər çəkilin o yana, ta bura bizimdir. Yenə də havadarları köməklərinə gəldi. Çünki onların bu fikri havadarlarına da olduqca sərf edirdi. Başladılar, öz də necə? Əlbir olub bir "ayı" bir "şir" ilə... Dovşan da oldu bizim o illərdə onlara torpaq satanlarımız. Hamısı dedilər ki, gün bu gündü, hər gün də bu gündü.

Başımıza açılmayan oyun qalmadı. Müharibə gördük, qan-qada gördük, gözlərimiz önündə öldürülən uşaq-böyüyü gördük. Evlərimizi tərk etdik, şiş burnunda. Yurdumuzdan qovulduq, silah ucunda. Qapılarımızı bağladıq öz əllərimizlə. Əzizlərimizi doğma torpaqlarımızda yadla bir yerdə qoyub gəldik. Gəlmədik, zorla qovulduq.

30 ildə həsrət, hicran, nisgil, göz yaşı, yurd dərdi dağ çəkdi sinəmizə. Qarabağ deyiləndə dodağımız yeddi yerdən çatladı. Neçə-neçə soydaşımız yurd deyə-deyə yanıb yaxıldı, məzara girdi. Nə arzular yarımçıq qaldı. Nə istəklər ürəklərdə məzarlaşdı. Biz burada, Qarabağ orada yandıq-yaxıldıq.

Erməni də bizim torpaqlarımızın sərvətini qonşularıyla birlikdə satdı-sovdu. Dedi, gün bu gündür, hər gün də bu gündür. Dartdılar, dağıtdılar, xarici bazarlara çıxartdılar sərvətlərimizi. Yerdə qalan nə vardısa, söküb taladılar. Camaatın bir ömürlük dişi-dırnağı ilə tikdiyi evlərinə belə tamah saldılar, söküb-dağıtdılar. Qapı-pəncərəsini, dam örtüyünü qonşuluğa daşıyıb orada satıb-sovdular.

Bu günün sabahı nəhayət ki, gəlib çatdı. 44 günlük Vətən Müharibəsi ermənilərə də, onların qonşularına da, havadarlarına da çox məqamları göstərdi. Ən birinci onu göstərdi ki, bəli, bu günün sabahı da var. Və onların düşündüyü kimi, eyni sabah deyil, fərqli sabahdır.

Bu fərqli sabah bizim üçün açıldı. Zəfərimiz, qələbəmiz, torpaqlarımızın 30 illik işğalına son qoymaq üçün açıldı. Birinci Vətən Müharibəsində olduğu kimi, yenə də 44 gündə minlərlə şəhid verdik, minlərlə qazimiz oldu, lakin erməni adlı murdarı qovub pak Qarabağımızdan çıxara bildik. Düşmənə torpağın şərəf, namus məsələsi olduğunu anlada bildik. Başlarına od yağdırmaqla, dəmir yumruq çırpmaqla torpağımızı geri aldıq.

Onlar nə etdilər? Yenə köhnə adətlərinə başladılar:

-Üz tutmadıqları qapı qalmadı,

-Zəng vurmadıqları adam qalmadı,

-Zəhləsini tökmədikləri ölkə qalmadı...

Sonda isə, bunların heç birindən xeyir yoxdur, məsələsini anlayanda, qandılar ki, artıq bu, 30 il əvvəl deyil, 30 il sonradır. Qarşılarında torpağı satanlar yox, torpağı qaytaranlar var. Torpağı satqı vasitəsi bilənlər yox, şərəf, namus məsələsi bilənlər var. Qarşılarında sınıq-sökük tar-tapança yox, müasir texnika var, dedilər yox, azərbaycanlıların süfrəsinin kənarında eşitdiyimiz məsəl-bu aş o aşdan deyil. Belə olanda 10 noyabrda ağ bayraq qaldırıb təslim olduqlarını bəyan etdilər, kapitulyasiya aktına imza atdılar.

10 noyabr- Qələbə günün mübarək, Azərbaycan!

10 noyabr-Ağ bayraq günün mübarək, Ermənistan! Sizdən fərqli olaraq biz humanistliyimizdə qalır və budur, sizi bayramınız münasibətilə təbrik edirik...

Xarici ekspertlər İlham Əliyev haqda



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" çərçivəsində hazırlanıb.*

# Prezident, Ali Baş Komandan, diplomat, strateq

***Bu günlərdə Azərbaycan 2-ci Qarabağ müharibəsində qələbənin 2-ci ildönümünü qeyd edir. İki il əvvəl Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu Ermənistan tərəfindən işğal edilmiş Qarabağı, o cümlədən, 28 il erməni boyunduruğu altında bərbad vəziyyətdə olan Şuşanı azad etdi.***

Bundan sonra Ermənistanın qaçılmaz təslim olması labüd məsələyə çevrildi və səhəri günü təslim olaraq müharibənin dayanmasına səbəb oldu. Azərbaycan xalqı bir çox siyasi və iqtisadi sınaqlardan keçərək bu qələbəyə doğru uzun müddət və çətinliklə getdi, amma bu günün gələcəyinə inamını itirmədi, bu günün gələcəyinə ümid edib səbrlə gözlədi. Nəhayət o gün gəldi- Azərbaycan Prezidentinin istedadı və uzaqgörənliyi sayəsində "Dəmir yumruq" adlı parlaq azadlıq əməliyyatı ən qısa zamanda həyata keçirildi. 44 payız günü ölkəmizin tarixi üçün unikal və əlamətdar oldu, əsgərlərimizin inanılmaz şücaət və şücaət nümunəsi, dünyanın bir çox orduları üçün hərbi strategiya və sənət nümunəsi kimi qəbul edildi.

Təbii ki, bu qələbədə Azərbaycan Prezidentinin rolunu qiymətləndirmək çətindir. Məhz o, ordumuzu və bütün xalqımızı bu qələbə gününə aparan əsas strateq və birləşdirici qüvvə oldu.

Qələbənin ikinci ildönümündə müxtəlif ölkələrdən olan politoloqlar və ekspertlər Caliber analitik mərkəzinə müsahibələrində Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin mühüm rolu ilə bağlı fikirlərini bölüşüblər. Ekspertlərin fikirlərinizi oxucularımıza təqdim edirik.



**İsrailli politoloq və jurnalist Roman Qureviç:**

"44 günlük müharibədə qələbə Azərbaycan xalqının qələbəsidir, ədalətin və beynəlxalq hüququn tələblərinin bərpasıdır. Ermənilərin işğalı illərində BMT-nin 4 qətnaməsi qəbul edilib ki, onlar ermənilərdən Azərbaycanın işğal olunmuş ərazilərini azad etməyi tələb edirdi. Amma bu qətnamələr yalnız kağız üzərində qaldı. 2020-ci ilin payızında Azərbaycan özü ərazi bütövlüyünü bərpa etdi. Bunda Azərbaycanın birinci şəxsi, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin, məncə, çox böyük rolu var.

Bu qələbənin bünövrəsi onilliklər ərzində quruldu, uzun illər ərzində möcüzələr göstərən, meşələri, silsilələri, dağ zirvələrini 44 gündə azad edən effektiv və qüdrətli ordu quruldu ki, bu da ya son dərəcə çətin, ya da sadəcə qeyri-mümkün hesab edilirdi.

Səmərəli iqtisadiyyat olmadan ordu quruculuğu mümkün deyil və Azərbaycanın nəhəng təbii sərvətləri, sərvətləri ölkənin və ordunun təliminə yönəldildi. Mən bunda Prezident İlham Əliyevin böyük rolunu görürəm.

Bundan əlavə, biz bilirik ki, dünya ictimaiyyəti bir çox məsələlərdə, o cümlədən bu münaqişədə necə ikiüzlüdür: bir tərəfdən Azərbaycanın ədalətli tələbləri tanınıb, digər tərəfdən isə ümumiyyətlə, hətta açıq şəkildə heç nə edilməyib, əksinə, Avropa liderləri erməni tərəfinə göz yumdular. Ona görə də Azərbaycan bu qələbəni təkbaşına əldə etməli idi. Müvafiq diplomatik səviyyədə, beynəlxalq aləmdə hazırlıq olmadan belə bir qələbəyə nail olmaq sadəcə mümkün olmazdı. Və belə bir hazırlıq Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirildi və dünya ictimaiyyəti İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul etdi.

İlham Əliyev Ermənistanın baş naziri, Fransa prezidenti və Avropa İttifaqının rəhbəri ilə görüşəndə və onlar Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini yekdilliklə tanıyanda - bu, artıq böyük işin nəticəsi idi, ən yüksək beynəlxalq səviyyədə göstərilən siyasi akrobatika idi. Belə ki, İlham Əliyevin məharətli hərəkətləri, diplomatiyası bir sıra Avropa siyasətçilərini, Azərbaycana qarşı yönəlmiş qüvvələri, hətta ermənipərəst Makronu da bu mövqedən çıxış etməyə məcbur etdi. İlham Əliyevin müdrik hərəkətləri olmasaydı, bu, mümkün olmazdı".

**Türkiyəli politoloq, Ankara Universitetinin professoru Toğrul İsmayıl:**



"İkinci Qarabağ Müharibəsi zamanı Azərbaycan Prezidenti öz üzərinə böyük məsuliyyət götürdü, o cümlədən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi hərbi qüvvələrin idarə olunması ilə bağlı əsas qərarları qəbul etdi. Bura ölkənin böyük diplomatik uğurları da daxildir.

Müharibə illərində prezident Əliyev çox işlər görüb, o cümlədən beynəlxalq diplomatik cəbhədə dost olmayan ölkələrin təbliğat mexanizmini faktiki olaraq sındırıb. Azərbaycana kütləvi informasiya hücumu oldu, Bakının ədalətli hərəkətlərinə qarşı çoxlu neqativlər yönəldildi. Lakin prezident Əliyevin arqumentləri bütün təhdidləri dayandırdı. Və bunu da qeyd etmək lazımdır.

Əhəmiyyətli məqam ondan ibarətdir ki, müharibədən sonra Prezident Əliyev Türkiyə ilə Şuşa Bəyannaməsini imzaladı və bu, Cənubi Qafqazda münaqişədən sonrakı sülhün vəziyyətini müəyyən edən amil oldu. Sürətlə dəyişən geosiyasi dünyada çevik və müdrik hərəkət etmək bacarığı Azərbaycan Prezidenti İlham Əliyevin simasında qalib gələn siyasətin mühüm alətlərindən biridir. Prezidentin və güclü ordunun ittifaqı, üstəlik bütün Azərbaycan əhalisinin dəstəyi Vətən Müharibəsində qələbəyə gətirib çıxardı".

**Qazaxıstanlı politoloq, siyasi elmlər namizədi Şarip İşmuxamedov:**

"Mən Azərbaycan ordusunun qələbə qazanmasında xalqın lideri kimi Prezident Əliyevin böyük töhfəsini görürəm. Prezident İlham Əliyev inkişaf etmiş, müasir iqtisadiyyat yaratdı, çünki enerji resurslarının xaricə satışından əldə edilən bütün vəsait ölkənin hərtərəfli struktur inkişafına, sənaye istehsalına, iş yerlərinin açılmasına yönəldildi. Pul həm də müasir ordunun formalaşdırılmasına, müasir silahların alınmasına yönəldildi. İlham Əliyev hər-



bçiliyin statusunu, 90-cı illərin müharibəsi nəticəsində müəyyən mənada əziyyət çəkən ordunun nüfuzunu yüksəldə bildi. Bunun üçün də böyük vəsait, Prezident Əliyevin rolu lazım idi. Axı hər bir ordu təkcə silahla deyil, həm də mənəviyyatla, ölkənin ərazi bütövlüyünün bərpası naminə fədakarlığa hazır olmaq baxımından güclüdür. Bütün bunlar Azərbaycan ordusuna xas idi, təbii hal kimi başa düşülürdü.

Və daha bir vacib məqam-2020-ci ilin yayında Bakıda keçirilən yürüş artıq əhalinin orduya dəstək verməyə hazır olduğunu, əhval-ruhiyyəsini göstərdi. Bu, o deməkdir ki, insanlar ordunun gücünə və iqtisadiyyatın dayanıqlığına, onun bir çox komponentləri olan hərbi zəminə keçməsinə inanırdılar. Bu da Prezident İlham Əliyevin xidmətidir".

*Tərcümə - Elçin Bayraml*

Səs

11 noyabr
2022-ci il

# Xaricdən maşın alanlar, diqqətli olun!



***"Xaricdən maşın alarkən Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin müvafiq maddələrində altı növ qiymətləndirmə üsulu var. Birinci üsul sövdələşmə qiyməti üsuludur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadi ekspert Asif İbrahimov deyib.***

Onun sözlərinə görə, Dövlət Gömrük Komitəsi hər zaman altıncı üsul ilə qiymətləndirməni aparır. Nədir bu altıncı üsul? Altıncı üsul ehtiyyat üsul da adlanır, yəni xaricdən dörd min dollara alınan avtomobil Azərbaycanda gömrükdən keçərkən dörd min manata gömrük rüsumundan keçir. Təqribi qiymət 60 və ya 70 faiz bahalı gəlib çıxır. Gürcüstanı və digər Cənubi Qafqaz ölkələrini müqayisə etsək görərik ki, həmin dörd min dollara alınan avtomobil 500 dollara heç rəsmiləşdirilmir. Bu sahədə Vətən qazilərinə və veteranlarına da bildiyim qədərilə heç bir imtiyazlar göstərilmir. Ümumiyyətlə düşünürəm ki, buna ümumi bir qayda gətirmək lazımdır. Hansısa bir xarici vətəndaşın on iki min dollara sürdüyü maşını Azərbaycanda əlli min manata sürmək məcburiyyətində qalır. Burada ciddi bir şəkildə balansın pozulması var və düşünürəm ki, bununla bağlı ilk növbədə qanunvericilikdə dəyişikliklər edilməlidir. Bilirik ki, dövr elm texnika dövrüdür və hal-hazırda "HİBRİD" avtomobillərə daha çox üstünlük verirlər. Bu istiqamətdə də həmin qanunvericilikdə dəyişikliklər edilməlidir. Yəni Azərbaycan vətəndaşı dörd min dollara aldığı maşını dörd min manata rəsmiləşdirməməlidir".

## ELAN

**Beyləqan şəhəri Mirzə Ələkbər Sabir küçəsi ev 14-də yaşayan Cavadov Vaqif Camal oğluna məxsuz Beyləqan rayon İcra Hakimiyyəti tərəfindən verilmiş 08.09.1999-cu il 48 saylı əkin sahəsinə dair Sərəncam itdiyi üçün etibarsız sayılır.**

# Şaxtalı havanın orqanizmə nə kimi faydası var?








***Bir çoxları elə düşünür ki, hava soyuq və şaxtalı olduqda evdə qalmaq və çölə çıxmamaq ən yaxşı yoldur. Düzdür bəzi xəstəliklər zamanı soyuq havada çox gəzmək olmaz, amma şaxtalı havanın da yaxşı təsir göstərdiyi xəstəliklər mövcuddur. SİA sizə şaxtalı havanın hansı xəstəliklər üçün faydalı olduğunu açıqlayır:***

### Piylənmə

Artıq çəki insanlarda arıqlamaq üçün qışda gəzmək yayda gəzməkdən daha effektlidir. Şaxta arıqlamağa kömək edir. Çünki soyuqda orqanizm özünü qızdırmaq üçün daha çox enerji sərf etməlidir. Bu enerji isə piy qatının parçalanması hesabına yaranır.

### Baş ağrısı və miqren

İstənilən mənşəli baş ağrıları zamanı havaya çıxaraq təmiz hava almaq kömək edir. Baş ağrısı başda yerləşən damarların spazmı səbəbindən yaranır. Şaxtalı havada isə dəridə olan kapillyarlar sıxılır, başdakı damarlar isə əksinə genələrək qan axımını qaydaya salır. Həmçinin soyuq hava sinir ucluqlarına da təsir edərək ağrı hissinin azalmasına və ümumi əhval-ruhiyyənin yüksəlməsinə səbəb olacaq.

### Hipotoniya

Arterial təzyiqdən əziyyət çəkən insanlar qışda özlərini pis hiss edirlər. Aşağı təzyiqdən əziyyət çəkənlərə isə əksinə şaxtalı havada gəzmək faydalıdır. Bunun səbəbi soyuqda qan damarlarının sıxılaraq təzyiqi yüksəlməsidir. Ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlar isə yaxşı olardı ki, şaxtalı havalarda evdə otursunlar.

### Piy vəzilərinin fəaliyyəti

Yağlı dəriyə malik insanlar isti havadansa soyuqda daha tez-tez gəzintiyə çıxmalıdırlar. Şaxtalı hava epidermisi qurudaraq çivzə, akne və sızanaqların yaranmasının qarşısını alır.

### Stresslə mübarizə

Qışın gəlişi ilə günlə qısalır və gecələr uzanır. Məhz bu amil də bir çox insanlarda depressiyanın yaranmasına səbəb olur. Amma alimlər şaxtalı havanın orqanizmdə "xoşbəxtlik hormonu" olan serotoninin və endorfinin sintezinin sürətləndirdiyini bildirirlər. Hətta 30 dəqiqəlik gəzinti sinir sistemini gücləndirir, qorxu və həyəcan hissini aradan qaldırır, iştahanı açır, əhvalı yüksəldir.

### İmmunitetin möhkəmlənməsi

Bir çoxları elə düşünürlər ki, soyuq hava xəstələnmənin əsas səbəbidir. Lakin bu belə deyil. Əksinə soyuq hava orqanizmin qoruyucu funksiyalarını daha da gücləndirir. Buna görə də şaxtalı havada ağızı və burunu qapalı bir şəkildə gəzmək və nəfəs almaq sizin xəstəliyə yoluxmağınıza yox, bədəninizin daha da möhkəmlənməsinə səbəb olacaq.

# DƏHŞƏT: 4 gündə yol qəzalarında 15 nəfər ölüb!



Son 4 gündə Azərbaycanda yol qəzalarında 15 nəfər ölüb. S?A-nın məlumatına görə, bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin əməkdaşı Nurlan Əliyev bildirib. O qeyd edib ki, 6,7,8,9 noyabr tarixində respublikanın avtomobil yollarında ölümlə nəticələnən 12 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 15 nəfər ölüb, 8 nəfər xəsarət alıb.

# Neft niyə ucuzlaşır?- əsl səbəb açıqlandı

***Çində koronavirusun yenidən yayılması haqqında xəbərlər dünya bazarlarında neftin qiymətinin düşməsinə səbəb olub. SİA birjalara istinadən xəbər verir ki, Şimal dənizində hasil olunan "Brent" neftinin yanvar fyuçersləri 0,05 % ucuzlaşaraq 1 bareli 92,59 ABŞ dollarına satılıb. WTI neftinin dekabr fyuçerslərinin qiyməti 0,07 % düşüb və 1 bareli 85,77 ABŞ dolları təşkil edib.***



Məlumata görə, 32 milyondan çox insanın yaşadığı Çinin Çunsin meqapolisində koronavirusa yoluxanların sayı 753 nəfərə çatıb.

Bundan əlavə, treyderlər ABŞ Energetika Nazirliyinin həftə ərzində ölkədə neftin kommersiya ehtiyatlarının 3,9 milyon barel artması haqqında məlumatları qiymətləndirirlər. Bunun 2021-ci ilin iyul ayından sonra ən yüksək artım olduğu bildirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**